Gündəlik ictimai-siyasi qəzet

# XALQ QƏZETİ

№ 106 (29078) 16 may 2019-cu il, cümə axşamı

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

## Prezident İlham Əliyev XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub

❒ ***Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi - "WorldFood Azerbaijan" və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" sərgiləri ilə tanış olub.***



Kənd təsərrüfatı naziri İnam Kərimov və "Caspian Event Organisers" şirkətinin regional direktoru Edvard Straxan dövlətimizin başçısına sərgilərlə bağlı məlumat verdilər.

Bildirildi ki, dünyanın 32 ölkəsini təmsil edən 440 şirkəti, eləcə də 11 milli və regional qrupu bir araya gətirən builki sərginin ekspozisiya sahəsi ötən illə müqayisədə 20 faiz artıb. Artım iştirakçıların sayında da qeydə alınıb.



"WorldFood Azerbaijan" və "Caspian Agro" sərgilərində Azərbaycanla yanaşı, Litva, Rusiya, Sloveniya, Ukrayna, Xorvatiya və digər ölkələri təmsil edən şirkətlər də yer alır. Bu il İtaliya, Türkiyə və Şri-Lanka sərgidə milli stendlərlə çıxış edirlər. Ənənəvi olaraq, sərgidə Rusiyanın Başqırdıstan, Penza, Voronij, Vladimir, Kabarda-Balkar kimi regional qrupları da iştirak edir. Bu il sahəsi genişlənmiş Belarus Respublikasının milli stendinin ekspozisiyası iki zalda - ikinci və sərginin tarixində ilk dəfə açılmış üçüncü zalda təqdim olunur. Burada, eyni zamanda, qida sənayesi sahəsində fəaliyyət göstərən startaplar, mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim edirlər. Gürcüstan və Niderland Krallığı sərgidə milli qruplarla təmsil olunur.

*(ardı 2-ci səhifədə)*

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Mayın 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi və Azərbaycan xalqını Ramazan ayı münasibətilə təbrik edib, dövlətimizin başçısına və xalqımıza firavanlıq arzularını çatdırıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib və öz növbəsində, Rəcəb Tayyib Ərdoğanı və Türkiyə xalqını bayram münasibətilə təbrik edib, Türkiyə Prezidentinə və xalqına ən xoş arzularını çatdırıb.

Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

## Şimali Makedoniya Respublikasının Prezidenti zati-aliləri cənab Stevo Pendarovskiyə

**Hörmətli cənab Prezident!**

Şimali Makedoniya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Şimali Makedoniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 may 2019-cu il**

## Quba rayonunun Quba–Qonaqkənd avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Altmış səkkiz min nəfər əhalinin yaşadığı 66 yaşayış məntəqəsini birləşdirən Quba–Qonaqkənd avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 20,0 (iyirmi) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 may 2019-cu il**

## Prezident İlham Əliyev Belarusun Baş nazirinin müavininin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

❒ ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Belarus Respublikası Baş nazirinin müavini İqor Lyaşenkonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

Dövlətimizin başçısı Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin uğurla və dinamik şəkildə inkişaf etdiyini bildirərək, Belarus Respublikası Baş nazirinin müavini İqor Lyaşenkonun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Bakıda keçirilən XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinə toxunan Prezident İlham Əliyev Belarusun bu tədbirdə fəal şəkildə iştirakından məmnunluğunu bildirdi. Dövlətimizin başçısı Belarusun kənd təsərrüfatı məhsullarının keyfiyyətinin Azərbaycanda razılıq doğurduğunu dedi və özünün Belarusa səfəri zamanı orada da Azərbaycan Ticarət Evinin açılmasını bu sahədə əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Belarus Respublikası Baş nazirinin müavini İqor Lyaşenko Belarusun XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində fəal iştirakının Prezident İlham Əliyevin ölkələrimiz arasında əməkdaşlığa göstərdiyi diqqətin nəticəsi olduğunu bildirdi və qeyd etdi ki, Azərbaycan və Belarus dövlətləri başçılarının əlaqələrimizin inkişafı ilə bağlı verdikləri tapşırıqlara əsasən birgə layihələr uğurla həyata keçirilir. İqor Lyaşenko ölkəmizə səfəri zamanı Azərbaycanda istehsal olunan və birgə istehsalı planlaşdırılan kənd təsərrüfatı texnikası və eləcə də digər nəqliyyat vasitələri nümunələri ilə tanış olduqlarını və bu sahədə işlərin uğurla həyata keçirildiyini diqqətə çatdırdı.

Görüşdə ölkələrimiz arasında kənd təsərrüfatı ilə yanaşı, maşınqayırma, avtomobil sənayesi sahələrində əlaqələrin perspektivləri müzakirə edildi, Azərbaycan məhsullarının, xüsusilə tütün və şərab ixracının önəmi qeyd olundu və bu sahədə əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***





Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir

▸▸4



Ordumuzun döyüş və qələbə əzmi yüksəkdir

▸▸5




UEFA-nın Avropa Liqasının final oyununa gələnlər üçün xüsusi sayt hazırlanıb

▸▸5



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada iftar verilib

▸▸6

# Prezident İlham Əliyev XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub









*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyevə Aqrar Məşğulluğun Artırılması Layihəsi barədə məlumat verildi.

Dövlətimizin başçısı sərgidə "Azersun", "Grow Group Azərbaycan", CASE, "Grimme", "Agro Dairy", CLAAS, "John Deer", "Rostselmaş", "Cahan Tobacco", "Lindsay", "Geoflow", METAK, GİLAN, İMAGRO, "Agronaft", "Prior Leasing" şirkətlərinin, Gəncə avtomobil zavodunun, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Rusiya Federasiyasının Başqırdıstan Respublikasının, Belarusun, İtaliyanın, Türkiyənin, Niderlandın, Gürcüstanın stendləri ilə tanış oldu. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikası, əkinbiçin aqreqatları, kənd təsərrüfatı məhsulları təqdim olunur.

Sərgidə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi də fəal iştirak edir. Ümumilikdə isə sərgilər BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), AZPROMO, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə keçirilir. "Caspian Event Organisers" şirkəti və onun beynəlxalq agentlər şəbəkəsi sərgilərin təşkilatçısıdır.

Bu il "WorldFood Azerbaijan" sərgisi 25 illik yubileyini qeyd edir və bu sahənin regionda hərəkətverici qüvvəsinə çevrilib. Sərgi 25 illik uğurlu fəaliyyəti ərzində dünyanın 40-dan artıq ölkəsini təmsil edən 2137 şirkəti bir araya gətirib. Nəticədə, bu şirkətlərin çoxu Azərbaycanda uğurlu biznes qurub.

Ənənəvi olaraq, sərgidə "Made in Azerbaijan" brendi altında geniş çeşiddə qida, o cümlədən ət və süd məhsulları, çay, bal, şirələr və milli istehsalçıların digər məhsulları təqdim olunur. Burada, eyni zamanda, suvarma sistemləri, istixanalar və heyvandarlıq təsərrüfatları üçün avadanlıqlar, yem və toxumlar, kənd təsərrüfatı texnikası, baytarlıq preparatları, laboratoriya qurğuları və digər avadanlıqlar nümayiş olunur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində digər sahələrlə yanaşı, kənd təsərrüfatının da bir çox istiqamətləri üzrə böyük işlər görülüb, dövlətimizin başçısı tərəfindən mühüm qərar və sərəncamlar, həmçinin konkret sahələr üzrə dövlət proqramları qəbul olunub. Bütün bunlar bir daha göstərir ki, kənd təsərrüfatının inkişafı ölkəmizdə prioritet sahələrdən biri kimi müəyyənləşib. Bu sahələrə göstərilən dövlət dəstəyi nəticəsində kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılmasına geniş imkanlar yaranıb. Aqrar sahəyə qoyulan investisiyaların həcmi də ildən-ilə artır.

Ölkəmizdə taxıl tədarükü istiqamətində də çox mühüm işlər görülüb. Ötən il 3,3 milyon ton taxıl tədarük olunub ki, bu da 2017-ci illə müqayisədə 13 faiz çoxdur. Bu il də artım gözlənilir. Belə ki, bu il ölkə üzrə 1 milyon 47 min 500 hektar sahədə yazlıq və payızlıq taxıl əkilib.

Həyata keçirilən bütün bu layihələr Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Kənd təsərrüfatının inkişafı, eyni zamanda, bu sahədə çalışanlara və fermerlərə göstərilən dövlət qayğısı ilə şərtlənir. Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq fermerlər müasir kənd təsərrüfatı texnikası ilə təchiz edilir, onlara subsidiyalar, yanacaq, gübrə güzəştli şərtlərlə verilir, fermerlər torpaq vergisindən başqa, bütün vergilərdən azad olunublar. Bütün bunlar kənd təsərrüfatının inkişafı üçün icra edilən tədbirlərin kompleks şəkildə davam etdirildiyini göstərir.

Kənd təsərrüfatı texnikasının ucuzlaşması isə bazarın liberallaşmasının, azad rəqabət mühitinin yaradılmasının nəticəsidir. Prezident İlham Əliyev tərəfindən aqrar texnologiyalar bazarında aparılan liberallaşma siyasəti şirkətlərin bu sahəyə marağını daha da artırıb.

Dövlətimizin başçısı "WorldFood Azerbaijan" və "Caspian Agro" sərgilərinin işinə uğurlar arzuladı.

***AZƏRTAC***



## Vahid "G2B" (dövlət-biznes) elektron reyestrinin təşkili və fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə yaradılmış vahid "G2B" (dövlət-biznes) elektron reyestrinin təşkili və fəaliyyətinin təmin edilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"na uyğun olaraq mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin və verilən hüquqmüəyyənedici sənədlərin vahid "G2B" (dövlət-biznes) elektron reyestri (bundan sonra – "G2B" reyestri) Dövlət Xidmətlərinin Elektron Reyestrinin (bundan sonra – Elektron Reyestr) tərkibində təşkil edilsin.

**2.** Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi:

2.1. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə birlikdə "G2B" reyestrinin təşkili və fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər görsün;

2.2. "Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 sentyabr tarixli 262 nömrəli Fərmanına uyğun olaraq "ASAN xidmət indeksi"ni təşkil edən parametrləri rəhbər tutmaqla, "G2B" reyestrinə daxil edilmiş xidmətlərin qiymətləndirilməsini Elektron Reyestr vasitəsilə həyata keçirsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. bu Fərmanın 2.2-ci bəndinə əsasən həyata keçirilən qiymətləndirmənin nəticələrini nəzərə alaraq, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Elektron Reyestr vasitəsilə "G2B" reyestrinə daxil etdiyi hər bir xidmətin "KOB indeksi"ni təşkil edən aşağıdakı parametrləri rəhbər tutmaqla qiymətləndirilməsini təmin etsin:

3.1.1. xidmətin mikro, kiçik və orta biznesin (KOB-un) inkişafına təsiri;

3.1.2. KOB-lara göstərilən xidmətin sadələşdirilməsinin və ya ləğvinin insan həyatına və sağlamlığına, ətraf mühitə, dövlətin iqtisadi maraqlarına təsiri;

3.2. bu Fərmanın 3.1-ci bəndinə uyğun olaraq həyata keçirilən qiymətləndirmənin nəticələri barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**4.** Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət adından yaradılan publik hüquqi şəxslərə və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə tapşırılsın, bələdiyyələrə isə tövsiyə edilsin ki:

4.1. "G2B" reyestrinin fəaliyyətinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin "Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında" 2014-cü il 11 sentyabr tarixli 262 nömrəli Fərmanının 3-cü hissəsindən və "Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının 9.1-ci bəndindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər;

4.2. "G2B" reyestrinin təşkili və fəaliyyətinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin müraciəti əsasında Agentliyə kömək göstərilməsini, onun sorğularının operativ qaydada və hərtərəfli cavablandırılmasını təmin etsinlər.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.4. Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təklifləri əsasında mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən dövlət xidmətlərinin "KOB indeksi" üzrə qiymətləndirilməsi qaydasını beş ay müddətində təsdiq etsin;

5.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 mart tarixli 570 nömrəli və 10 aprel tarixli 619 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. "Dövlət orqanının adı" sütununda "orqanının" sözündən sonra "(qurumunun)" sözü əlavə edilsin;

6.2. 13-cü hissənin "Göstərdiyi xidmətlər" sütununun 5-ci bəndinə "avtomobil" sözündən əvvəl "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisi istisna olmaqla, Azərbaycan Respublikasının digər inzibati ərazilərində" sözləri əlavə edilsin;

6.3. 19-cu hissənin "Göstərdiyi xidmətlər" sütununun 3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"3. Bakı şəhərinin inzibati ərazisində ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma haqqında müqavilənin bağlanılması".

**7.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 may 2019-cu il**

## Azərbaycan Respublikası Prezidentinin "Alkoqollu içkilər, etil (yeyinti) spirti və tütün məmulatı istehsalının, saxlanmasının, idxalının və satışının tənzimlənməsi haqqında" 1996-cı il 20 dekabr tarixli 527 nömrəli, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2007-ci il 6 fevral tarixli 528 nömrəli, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2009-cu il 29 may tarixli 97 nömrəli, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1227-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2015-ci il 3 aprel tarixli 496 nömrəli və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1228-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2015-ci il 3 aprel tarixli 497 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"də və 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 415 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Alkoqollu içkilər, etil (yeyinti) spirti və tütün məmulatı istehsalının, saxlanmasının, idxalının və satışının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 20 dekabr tarixli 527 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 74; 2001, № 10, maddə 640; 2003, № 10, maddə 585; 2009, № 2, maddə 72, № 3, maddə 163; 2010, № 5, maddə 394; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1470, № 11, maddə 1799) 2-ci hissəsinin ikinci abzasında "Maliyyə Nazirliyinə" sözləri "Vergilər Nazirliyinə" sözləri ilə əvəz edilsin.

**2.** "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 94, № 11, maddə 1111; 2009, № 4, maddə 226, № 6, maddə 417; 2014, № 10, maddə 1199; 2015, № 3, maddə 273, № 9, maddə 991; 2016, № 12, maddə 2065; 2017, № 5, maddə 830; 2018, № 10, maddə 2016) 2.5-ci bəndində "Maliyyə Nazirliyi" sözləri "Vergilər Nazirliyi" sözləri ilə əvəz edilsin.

**3.** "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 329; 2012, № 4, maddə 294; 2013, № 8, maddə 908; 2015, № 9, maddə 987; 2017, № 6, maddə 1097) 2.8-ci bəndində "Maliyyə Nazirliyi" sözləri "Vergilər Nazirliyi" sözləri ilə əvəz edilsin.

**4.** "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1227-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli 496 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 375) 3-cü hissəsi ləğv edilsin.

**5.** "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1228-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli 497 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 376) 3-cü hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 may 2019-cu il**

## Yoakim BRÖYER: Azərbaycan sosial təminat sahəsində ciddi uğurlara imza atıb



❐ ***Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov mayın 15-də Beynəlxalq Sosial Təminat Assosiasiyasının prezidenti, Almaniyanın İş Yerində Bədbəxt Hadisələrdən Sosial Sığorta Təşkilatının rəhbəri Yoakim Bröyerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Baş Nazir Novruz Məmmədov Bakıda keçirilən Beynəlxalq Sosial Təminat Assosiasiyasının Avropa Regional Sosial Təminat Forumunun əhəmiyyətindən danışaraq bu tədbirin Azərbaycan üçün də mühüm önəm kəsb etdiyini diqqətə çatdırıb. "Hesab edirəm ki, forumda aparılan müzakirələr Azərbaycanda bu istiqamətdə görülən işlərə öz töhfəsini verəcək", - deyə Novruz Məmmədov vurğulayıb.

Azərbaycanın Beynəlxalq Sosial Təminat Assosiasiyasının fəaliyyətində yaxından iştirak etdiyini qeyd edən Baş Nazir ölkəmizdə sosial sahədə görülən işlər barədə qonağa məlumat verib. Bildirib ki, Azərbaycan hökuməti fəaliyyətində sosial məsələlərə hər zaman diqqətlə yanaşır. Həmçinin ölkəmizdə dövlət büdcəsi formalaşdırılarkən onun sosialyönümlü olmasına xüsusi diqqət ayrılır.

Prezident İlham Əliyev tərəfindən müxtəlif istiqamətlərdə, o cümlədən sosial sahədə reallaşdırılan islahatlardan, atılan addımlardan bəhs edən Novruz Məmmədov bildirib ki, Azərbaycanda Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST) yaradılması müxtəlif sosial xidmətlərin vətəndaşlara tam şəffaf və operativ şəkildə, yüksək keyfiyyətlə təqdim olunmasını təmin edir.

Yoakim Bröyer forumun təşkilinə göstərilən dəstəyə, qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. O, Azərbaycanda sosial sahədə aparılan islahatları yüksək qiymətləndirərək, bu istiqamətdə görülən işlərin möhkəm siyasi iradə sayəsində mümkün olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan sosial təminat sahəsində ciddi uğurlara imza atıb, ölkədə bu istiqamətdə vacib islahatların reallaşdırılması üçün əməli işlər görülür. "DOST" mərkəzində olduğunu, oradan çox müsbət təəssüratlarla ayrıldığını bildirən Yoakim Bröyer Azərbaycanın bu layihəsinin dünya miqyasında uğurlu yenilik olduğunu diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

***AZƏRTAC***

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 219 Bakı şəhəri, 13 may 2019-cu il**

**"Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 yanvar tarixli 7 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** "Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2.** "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 yanvar tarixli 7 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 1, maddə 60; 2012, № 5, maddə 484, № 6, maddə 625, № 10, maddə 1008; 2013, № 10, maddə 1230; 2015, № 12, maddə 1561; 2016, № 10, maddə 1701, № 12, maddə 2239; 2017, № 4, maddə 640, № 12 (II kitab), maddə 2536; 2018, № 5, maddə 1143, № 11, maddə 2429) 1-ci hissəsi ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları:

3.1. tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələri istisna olmaqla) publik hüquqi şəxslərə çevrilmə şəklində yenidən təşkili barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

3.2. bu Qərarın 3.1-ci bəndində nəzərdə tutulmuş yenidən təşkiletmə barədə qərar qəbul edildiyi tarixdən iki ay müddətində bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədən irəli gələrək tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələri istisna olmaqla) nizamnamələrini təsdiq etsinlər;

3.3. bu Qərarın 3.2-ci bəndində nəzərdə tutulmuş nizamnamələr təsdiq edildikdən sonra tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətləri beş gün müddətində etmələrini təmin etsinlər;

3.4. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədə sonradan ediləcək dəyişikliklərdən irəli gələrək tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələri istisna olmaqla) nizamnamələrində dəyişiklikləri bir ay müddətində təsdiq etsinlər və bundan irəli gələrək tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətləri beş gün müddətində etmələrini təmin etsinlər.

**4.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədən irəli gələrək dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin nizamnamələrini bu Qərarın 5.2-ci bəndində nəzərdə tutulmuş təklif təqdim edildiyi gündən iki ay müddətində və nizamnamələrində dəyişiklikləri bu Qərarın 5.4-cü bəndində nəzərdə tutulmuş təklif təqdim edildiyi gündən bir ay müddətində təsdiq etsin.

**5.** Dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər:

5.1. tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin publik hüquqi şəxslərə çevrilmə şəklində yenidən təşkili barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

5.2. bu Qərarın 5.1-ci bəndində nəzərdə tutulmuş yenidən təşkiletmə barədə qərar qəbul edildiyi tarixdən bir ay müddətində bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədən irəli gələrək tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin nizamnamələrinin təsdiq edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim etsinlər;

5.3. bu Qərarın 5.2-ci bəndində nəzərdə tutulmuş nizamnamələr təsdiq edildikdən sonra tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətləri beş gün müddətində etmələrini təmin etsinlər;

5.4. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədə sonradan ediləcək dəyişikliklərdən irəli gələrək tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin nizamnamələrində dəyişikliklərin təsdiq edilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim etsinlər və bundan irəli gələrək tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətləri beş gün müddətində etmələrini təmin etsinlər.

**6.** Bu Qərarın 3.1-ci və 5.1-ci bəndlərinin icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinə həvalə edilsin.

7. Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

**Qeyd:** *Qərara edilmiş əlavələrin tam mətni ilə www.cabmin.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz*

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 220 Bakı şəhəri, 15 may 2019-cu il**

**"Viza blankının doldurulması Qaydası"nın, "Viza almaq üçün ərizə-anket"in nümunəsinin və "Azərbaycan Respublikasına əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi dəvət edən tərəfin vəsatəti"nin nümunəsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 87 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 oktyabr tarixli 1082 nömrəli Fərmanı ilə təsdiq edilmiş "ASAN Viza" sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 612 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 318; 2016, № 5, maddə 944; 2018, № 5, maddə 1109, № 10, maddə 2141; 2019, № 1, maddə 170) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Viza almaq üçün ərizə-anket"in 26-cı bəndi ləğv edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

## Çexiya parlamenti Deputatlar Palatasının sədri Azərbaycana rəsmi səfərə gəlib



❐ ***Çex Respublikası parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 15-də Azərbaycana rəsmi səfərə gəlib.***

Heydər Əliyev Beynəlxalq Aeroportunda Çexiya parlamenti Deputatlar Palatasının sədrini Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini Valeh Ələsgərov qarşılayıb.

Jurnalistlərə müsahibəsində Radek Vondraçek Azərbaycana səfərdən məmnunluğunu bildirib. O, ölkələrimiz arasında bir çox oxşarlıqların olduğunu deyib.

Deputatlar Palatasının sədri Çexiya ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf səviyyəsini yüksək qiymətləndirdiklərini söyləyib. O, Azərbaycana iş adamlarından ibarət nümayəndə heyəti ilə gəldiyini qeyd edib. Səfər çərçivəsində bir çox sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı müzakirələrin aparılacağını diqqətə çatdıran Radek Vondraçek əlaqələrin daha da genişlənməsi üçün yaxşı potensialın olduğunu vurğulayıb.

***AZƏRTAC***

## Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında özəl şirkətlərin roluna dair müzakirələr aparılıb

❐ ***Mayın 15-də Bakıda Azərbaycan Respublikası Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, İqtisadiyyat Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında özəl şirkətlərin rolu" mövzusunda tədbir keçirilib.***



Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov "Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi"ndən irəli gələn məqsədlər və Azərbaycanın DİM-lərə nail olunması istiqamətində gördüyü işlər barədə danışıb. O, ölkəmizdə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradıldığını, Şura çərçivəsində aidiyyəti qurumların fəaliyyətinin əlaqələndirildiyini, Azərbaycanın inkişaf prioritetlərinin DİM-lərə uyğunlaşdırıldığını və ölkəmizdə həyata keçirilən dövlət proqramları və digər sənədlərdə DİM-lərin nəzərə alındığını qeyd edib. Baş nazirin müavini Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində dövlət-özəl əməkdaşlığının, bu sahədə maarifləndirmə tədbirlərinin əhəmiyyətini vurğulayıb, Azərbaycanın regionda ilk ölkə olaraq BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna Azərbaycanın İkinci Könüllü Milli Hesabatının təqdim olunacağını bildirib.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının rezident nümayəndəsinin səlahiyyətlərini icra edən Alessandro Frakassetti DİM-lərə çatmaq üçün görüləcək tədbirlər, bu sahədə Azərbaycanla əməkdaşlıq barədə fikirlərini bölüşüb. DİM-lərin həyata keçirilməsi istiqamətində ölkəmizin ciddi addımlar atdığını vurğulayan A.Frakassetti bu sahədə Azərbaycan hökuməti ilə əməkdaşlıqdan məmnunluğunu bildirib, Azərbaycanın 2017-ci ildə Könüllü Milli Hesabatını təqdim edən ilk ölkələrdən olduğunu diqqətə çatdırıb.

İqtisadiyyat Nazirliyinin dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov "DİM-in qlobal məqsəd, hədəf və göstəricilərin milli prioritetlərə uyğunlaşdırılması və DİM-lərdə özəl sektorun rolu" mövzusunda təqdimatla çıxış edib.

"Dayanıqlı İnkişaf Məqsədləri və özəl sektor" panel müzakirədə iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkə iqtisadiyyatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər, aparılan iqtisadi islahatlar barədə məlumat verib. Sahibkarlığın inkişafının, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılmasının ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən olduğunu, son zamanlar köklü islahatların aparıldığını vurğulayan S.Məmmədov bu sahədə görülən işlərin nəticəsi olaraq, ümumi daxili məhsulda özəl sektorun payının 85 faizə, məşğulluqda isə 76 faizə çatdığını qeyd edib. Bütün bunlar isə DİM-in səmərəli icrası baxımından mühüm əhəmiyyət kəsb edir. Özəl sektora göstərilən çoxşaxəli dövlət dəstəyi tədbirləri dövlət-özəl sektor münasibətlərini daha da inkişaf etdirməklə qarşıya qoyulmuş hədəflərə nail olunmasına öz töhfəsini verir.

O, əldə olunan nailiyyətlərin beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildiyini qeyd edib. Belə ki, Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın ən islahatçı 10 ölkəsi siyahısına daxil edilmiş və ən çox islahat aparan ölkə elan olunub. Hesabatda Azərbaycanın mövqeyi 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə, MDB ölkələri arasında isə liderlik mövqeyinə yüksəlib.

Paneldə çıxış edən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, "Ernst & Young Holdings" şirkətinin Azərbaycan və Gürcüstan üzrə rəhbəri Günel Fərəcova, Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Aliyə Əzimova və "Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası" İctimai Birliyinin sədri Səkinə Babayeva DİM-lərin səmərəli icrasında özəl sektorun rolundan danışıblar.

Panel iclasda DİM-lərə nail olmaq üçün dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi, bu sahədə sahibkarlığın töhfəsi barədə fikir mübadiləsi aparılıb.

***AZƏRTAC***




*Keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığın prioritetləri adlı mühüm sənəd imzalanmışdır. Bu sənəddə bir çox məsələlər öz əksini tapır. Xüsusilə onu vurğulamalıyam ki, Ermənistan--Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan məsələlər çox müsbət xarakter alır. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olunur.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir

**Xalqımızın və dövlətimizin xoşbəxtliyidir ki, Prezident İlham Əliyevin istənilən xarici səfərindən sonra politoloq və siyasi analitiklər diplomatiyamızın növbəti uğurundan danışırlar. Cənab Prezidentin mayın 13-də reallaşdırdığı Brüssel səfəri də bu baxımdan istisna təşkil etmədi. Rəsmi protokolda işgüzar səfər kimi qeyd edilən bu səfər, sözün həqiqi mənasında, çox işgüzar oldu. Belə ki, dövlət başçımız səfərin ilk günü Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşdü. Müzakirələr çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Azərbaycanın Avropa İttifaqı üçün etibarlı və məsuliyyətli tərəfdaş olduğunu qeyd edən Donald Tuskun etirafı Bakıda və xaricdəki dostlarımızın yanında nə qədər məmnunluqla qarşılandısa, onun Azərbaycanın regiondakı rolunun Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirildiyini vurğulaması da Ermənistanda bir o qədər narahatlıq və qısqanclıqla qəbul edildi.**

Xatırladaq ki, son zamanlar Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər uğurla inkişaf edir və ölkəmiz bu əlaqələrin genişlənməsinə böyük önəm verir. Elə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Donald Tuska Ermənistan --Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesi barədə ətraflı məlumat verməsi də bu əlaqələrin genişləndirilməsinə verdiyimiz önəmin göstəricilərindən biri idi. Tərəflər Azərbaycan və Avropa İttifaqı arasında bir il qabaq imzalanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyətini vurğulamaqla yanaşı, üzərində danışıqlar aparılan tərəfdaşlıq sazişi ilə bağlı fikir mübadiləsi də ediblər.

Bundan başqa, Avropa İttifaqı Şurasının prezidentinin adından Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının şərəfinə verilən şam yeməyində çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Şərq Tərəfdaşlığı Proqramında iştirak edən fəal ölkələrdən biri olmaqla yanaşı, Avropa İttifaqına üzv dövlətərlə də sıx əlaqələrə malikdir. Belə ki, Azərbaycanın Avropa İttifaqının üzvü olan doqquz ölkə ilə əlaqələri strateji tərəfdaşlıq xarakteri daşıyır.

Bu gün təkcə Avropada deyil, eləcə də bütün dünyada hamıya məlumdur ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır və təşkilatın üzv dövlətləri ölkəmizdə aparıcı sərmayəçi qismində çıxış edirlər. Amma, çox təəssüf ki, qurumun Şərq Tərəfdaşlığı Proqramının iştirakçısı olan Ermənistan və Azərbaycan arasında münaqişənin öz həllini tapmaması da günün reallıqları sırasındadır. Dövlət başçımız beynəlxalq təşkilatın üzvü olan dövlət və hökumət rəhbərlərinin nəzərinə çatdırıb ki, bu münaqişə yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunmalıdır.

Siyasi ekspertlərin fikrincə, bu gün təkcə Avropa İttifaqı deyil, eləcə də bütün beynəlxalq təşkilatlar Azərbaycanın yeganə problemi olan Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz Azərbaycanın ərazi bütövlüyünün bərpası şərti ilə həllini istəyirlər. Özü də tezliklə. Çünki bugünkü Avropaya hansısa acyalavac ölkə ilə münaqişədə olan Azərbaycan yox, qüdrətli iqtisadiyyatı və müstəqil siyasəti olan Azərbaycan Respublikası lazımdır. Nə üçün? Bu sualın cavabını da cənab Prezidentin Brüsseldəki çıxışında tapmaq mümkündür. Dövlət başçımız Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə xüsusi töhfələr verdiyini vurğulayaraq bildirdi ki, ölkəmizin təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji layihələrində hasilatçı, tranzit və istehlakçı dövlətlərin maraqları onların əməkdaşlığı çərçivəsində birgə şəkildə qorunur. Eləcə də, Azərbaycanın Şərq-Qərb nəqliyyat dəhlizinin reallaşdırılmasında mühüm rol oynadığını qeyd edən Prezident ölkəmizin Avropa İttifaqı ilə nəqliyyat sahəsində də uğurla əməkdaşlıq etdiyini bildirdi. Bütün bunlar isə müasir Avropada günün ən aktual məsələlərindən biri kimi qəbul edilir. Ona görə də Azərbaycana olan münasibət gündən-günə daha da yaxşılaşır.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Brüsseldə Şərq Tərəfdaşlığı xarici işlər nazirlərinin görüşündəki çıxışında bildirib ki, Avropa İttifaqı xarici ticarət dövriyyəmizdə təxminən 42 faizlik paya malik olmaqla, Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Həmçinin Avropa İttifaqı Azərbaycanda ən böyük investordur. Ənənəvi birgə Avropa İttifaqı --Azərbaycan Biznes Forumu Avropa İttifaqının müxtəlif sənaye və xidmət sektorundan çoxlu nümayəndə cəlb edir. Növbəti biznesforum bu il iyunun 13-də Bakıda keçiriləcək.

Azərbaycanın baş diplomatı xüsusilə vurğulayıb ki, biz Avropa İttifaqı ilə yeni ikitərəfli müqavilə ilə bağlı keyfiyyətyönümlü danışıqlar vasitəsilə ikitərəfli münasibətlərdə uğur əldə etməkdə maraqlıyıq. Biz həm bir-birimizdən öyrənirik, həm də əməkdaşlıq prosesində bir-birimiz barədə məlumatlanırıq.

Xatırladaq ki, Azərbaycanla Avropa İttifaqı arasında "Tərəfdaşlıq Prioritetləri" sənədinin imzalanmasından əlavə, daha yeni olan iki sektoral format – təhlükəsizlik və nəqliyyat dialoqlarına başlanılıb. Nazir vurğulayıb ki, 2017-ci ildə Brüsseldə keçirilmiş sonuncu Şərq Tərəfdaşlığı Sammiti konkret məqsədlərə nail olmağı özündə əks etdirən "2020-ci il üçün 20 nəticə" adlı sənədi dəstəkləyib. Tərəflər inanırlar ki, bu nəticələr regionumuza daha böyük dərəcədə davamlılıq, rifah, inkişaf və bağlılıq gətirmək imkanında olacaq.

Bununla yanaşı, Azərbaycan təmsilçisi həmin məsələdə də milli maraqlarımızın və dövlətimizin mənafelərinin qorunması zərurətini indidən dilə gətirir. Özü də, böyük ustalıqla: "Lakin "2020-ci il üçün 20 nəticə" üzrə danışıqlar bərabər tərəfdaşlar arasındakı kimi baş tutmalıdır. Bu prosesin müvəffəqiyyəti nəzərəçarpacaq nəticələrdən asılı olacaq. Həmin məqsədlərdən bəziləri Azərbaycanın əsas sektorları üzrə Strateji Yol xəritələrinə uyğun gəlir".

İndiyədək Avropadakı məlum antiazərbaycan dairələrin müxtəlif tribunalardan dilə gətirdiyi bəzi məsələlərə üstüörtülü olsa da, münasibət bildirən nazir xüsusi olaraq vurğulayır ki, Azərbaycan hökuməti vətəndaşlarının bütün insan hüquq və fundamental azadlıqlarından tam yararlanmasını təmin etmək üçün genişmiqyaslı proqramlar həyata keçirir: "Bu xüsusda, 2019-2023-cü illərdə ədliyyə sisteminin təkmilləşdirilməsinə dair əlavə qanunvericilik və struktur tədbirlərini nəzərdə tutan ədliyyənin inkişafı ilə bağlı qəbul edilmiş Dövlət Proqramını qeyd etmək lazımdır".

Avropa İttifaqının, eləcə də, bütün beynəlxalq təşkilatların əsas prinsiplərindən biri də üzv ölkələrin öz qonşuları ilə münasibətlərdə əməkdaşlıq və tərəfdaşlıq kursu götürməsinin zəruriliyidir. Fikrimizcə, Azərbaycan bu baxımdan bir çox ölkələrə nümunə göstərilə bilər. Çünki Azərbaycan, demək olar ki, bütün qonşuları ilə çox yaxşı, bəziləri ilə isə strateji xarakterli münasibətlər qurub. Ölkəmiz özünü regionda, eləcə də Avropa İttifaqı ilə münasibətlərində etibarlı tərəfdaş kimi doğruldub.

Amma o da faktdır ki, Avropa İttifaqının və Azərbaycanın qonşuluğunda bəzi problemlər hələ də qalmaqdadır. Bir sıra regional perspektivlər, o cümlədən bağlılıq, ticarət layihələri və bəzi digər təşəbbüslər həll edilməmiş münaqişələrin girovu olaraq qalmaqdadır. Belə ki, Azərbaycan ərazilərinin işğalının Ermənistan tərəfindən davam etdirilməsi bölgənin daha yüksək əməkdaşlıq səviyyəsinə keçməsinə maneələr törədir. Elmar Məmmədyarovun fikrincə, əgər biz birlikdə Şərq Tərəfdaşlığı vasitəsilə irəliləyiriksə, onda Avropa İttifaqının qonşuluq siyasətinin məqsədlərinə nail olmaq üçün münaqişələrin nizamlanması və işğalın aradan qaldırılması məsələləri öz həllini tapmalıdır.

Xatırladaq ki, Avropa Parlamentinin 2013-cü ilin oktyabrında qəbul etdiyi qətnamədə vurğulandığı kimi, Avropa İttifaqının bir tərəfdaşı digər tərəfdaşının ərazisini işğal edə bilməz. Beləliklə, burada təkcə BMT Təhlükəsizlik Şurası, BMT Nizamnaməsi və ya ATƏT sənədləri deyil, Avropa İttifaqının qanunverici qurumu da hər şeyi öz adı ilə çağırıb. Azərbaycan tərəfi inanır ki, Şərq Tərəfdaşlığının gələcəyi və uğuru məhz bölgədə təhlükəsizlik və sabitliyin qoruna biləcəyindən asılıdır. Bu təhlükəsizlik və sabitliyin qorunmasının qarşısındakı yeganə maneə isə Ermənistan dövləti və onun işğalçı siyasətidir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Ölkəmizin getdikcə artan nüfuzu ermənipərəst qüvvələri narahat edir



**SON günlər Azərbaycanın beynəlxalq nüfuzunu ləkələmək məqsədi güdən qarayaxma kampaniyası aparılır. Bu şər-böhtan, hədyan çağırışlarının arxasında ölkəmizdəki "5-ci kolon"un ermənipərəst qüvvələri və Qərbdəki iaşə müxalifətinin antiazərbaycan mərkəzlərinin üzvləri dayanırlar. Onlar Prezident İlham Əliyevin Brüssel səfərinin əhəmiyyətini azaltmağa can atır, ölkəmizin nüfuzuna xələl gətirmək məqsədilə Azərbaycan əleyhinə hər cür iftira atmaqdan, yalan deməkdən belə çəkinmirlər.**

Ancaq onlar bütün bu pozuculuq səylərinin nəticəsiz qalacağını bilməmiş deyillər. Sadəcə, ağalarından aldıqları qəpik-quruş xatirinə iyrənc əməllərindən çəkinə bilmirlər. Onlar yaxşı anlayırlar ki, Avropa İttifaqı (Aİ) Azərbaycana vacib və əhəmiyyətli tərəfdaş kimi baxır, respublikamızla strateji əməkdaşlığa xüsusi önəm verir. Fikrimin təsdiqi olaraq təkcə bir faktı xatırlatmaq istərdim. Aİ bu quruma üzvü olan doqquz ölkə ilə birlikdə ölkəmizin təşəbbüsü, habelə fəal iştirakı ilə reallaşdırılan enerji, nəqliyyat layihələrinə həssas münasibət bəsləyir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq aləmdə gündən-günə artan nüfuzu ermənipərəst qüvvələri ciddi narahat edir. Respublikamızın siyasi, sosial-iqtisadi sahələrdə əldə etdiyi uğurları gözü götürməyən həmin qüvvələr, hətta mayın 29-da Bakıda keçiriləcək UEFA Avropa Liqasının final oyunu ilə bağlı da idmana heç bir aidiyyəti olmayan, qərəzli və reallıqdan uzaq subyektiv mülahizələr irəli sürür, beynəlxalq ictimaiyyətdə bu mühüm idman tədbirinin Azərbaycanda keçirilməsinin məqsədəuyğun olmadığı barədə rəy formalaşdırmağa çalışırlar.

Qeyd edim ki, xalqımız xarici antiazərbaycan dairələrin belə əməllərinin, ölkəmizə qarşı bu cür qərəzli kampaniyalar təşkil etməsinin dəfələrlə şahidi olub. Yəqin ki, hamımız mühüm enerji və nəqliyyat layihələrinin reallaşdırılması, qlobal xarakterli tədbirlərin keçirilməsi, 2012-ci ildə Avroviziya, 2015-ci ildə birinci Avropa Oyunları, 2017-ci ildə İslam Həmrəyliyi Oyunları və digər tədbirlər ərəfəsində ölkəmizə qarşı təşkil olunmuş qərəzli qarayaxma kampaniyasını yaxşı xatırlayırıq. Təbii ki, o vaxtlar olduğu kimi, indi də qarayaxma kampaniyası heç bir nəticə verməyəcək. Çünki səsləndirilən iddiaların heç bir əsası yoxdur. Azərbaycanda xalq–iqtidar birliyi var, ölkədə dinclik, əmin-amanlıq hökm sürür. Sabitliyə və cinayətkarlığın səviyyəsinin aşağı olmasına görə Azərbaycan dünyanın ən əlverişli ölkələri ilə bir sırada durur.

Bəli, mayın 29-da Bakıda UEFA Avropa Liqasının final oyununun böyük idman bayramına çevriləcəyi şübhəsizdir. Azərbaycan əvvəlki dövrdə də sübut edib ki, istənilən böyük beynəlxalq tədbiri ən yüksək səviyyədə təşkil etməyə qadirdir.

Bir sözlə, bütün bu cəhdlər, qarayaxmalar göstərir ki, xaricdəki maraqlı dairələr Azərbaycanın dünyada nüfuzunun artmasından, onun yüksək səviyyəli iqtisadi, siyasi, humanitar mərkəzə çevrilməsindən narahatdırlar. Növbəti mühüm tədbir ərəfəsində heç bir əsası olmayan iddiaların irəli sürülməsi də bu məkrli niyyətdən irəli gəlir, Azərbaycanın beynəlxalq nüfuzunu ləkələmək məqsədi güdür.

***Zaur MİRZƏZADƏ,***
***"Dünya Azərbaycanlıları" İctimai Mərkəzinin sədri***

# Avropa İttifaqı ilə əlaqələrin genişlənməsi təqdirəlayiqdir

**Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramına üzv ölkələrin dövlət və hökumət başçılarının sammiti başa çatıb. Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun adından Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının şərəfinə verilən şam yeməyində çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan Şərq Tərəfdaşlığı Proqramında iştirak edən fəal ölkələrdən biridir. Müstəqil ölkəmizin aparıcı Avropa strukturları, xüsusilə Avropa İttifaqı kimi nüfuzlu bir təşkilat ilə hərtərəfli əlaqələrinin genişlənməsi ölkə ictimaiyyətində dərin razılıq hissi ilə qarşılanıb. Bu barədə Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru Atamoğlan Məmmədli fikirlərini bizimlə bölüşdü:**

– Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin Brüsselə işgüzar səfərini, orada keçirdiyi mühüm görüşləri, səsləndirdiyi dəyərli fikir və təklifləri ölkə və qlobal media vasitəsilə dərin maraqla izlədim. Hesab edirəm ki, Azərbaycanın Avropa İttifaqı ilə hərtərəfli əlaqələrinin genişlənməsi hər cür təqdirə layiqdir.

Dövlətimizin başçısı Brüsseldə haqlı olaraq bildirib ki, Azərbaycan Avropa İttifaqına üzv ölkələrlə sıx əlaqələrə malikdir. Avropa İttifaqının bir sıra dövlətləri ilə əlaqələrimiz hətta strateji tərəfdaşlıq xarakteri daşıyır. Sevindirici haldır ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır və təşkilatın üzv dövlətləri ölkəmizdə aparıcı sərmayəçi qismində çıxış edirlər.

Avropa da regionun lideri sayılan müstəqil Azərbaycanla hərtərəfli əlaqələrin güclənməsində maraqlıdır. Axı, ölkəmiz son illər qitənin enerji təhlükəsizliyinə böyük töhfələr verir. Bunu Brüsseldə dərin məmnunluq hissi ilə etiraf edir və yüksək qiymətləndirirlər.

Dövlətimizin başçısı Brüsseldəki çıxışlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinin vacibliyi məsələsinə də toxunub. Problemin həllinin yubadılması təkcə region üçün deyil, bütövlükdə, qitənin təhlükəsizliyi üçün təhdiddir. Buna görə də beynəlxalq qurumlar, o cümlədən Avropa İttifaqı Qarabağ münaqişəsinin həllində daha konstruktiv mövqe nümayiş etdirməyə çalışmalıdır.

Sonda qeyd etmək istəyirəm ki, Avropa İttifaqı ilə əlaqələrimizin yeni, keyfiyyətcə daha yüksək səviyyəyə yüksəlməsi hər iki tərəfin maraqlarına xidmət edir. Qarşılıqlı inam və etimad üzərində qurulan bu əlaqələrin gələcəkdə daha sıx, intensiv xarakter alacağına əminəm.

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI,***
***"Xalq qəzeti"***

# DOST sosial müştərilərin etibarlı dostudur

**2019-cu il may ayının 9-u ömrümün ən yaddaqalan günlərindən biri oldu. Çünki həmin gün Azərbaycan dövlətinin sosial sahədəki islahatlarının indiyədək qeydə alınan ən möhtəşəm layihəsinin təqdimatında mən də iştirak etdim. O gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Yasamal rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılış mərasimində iştirak edirdilər.**

Əlbəttə, cənab Prezidentin sosial qayğıya ehtiyacı olan insanlara xidmət edəcək bu agentliyin fəaliyyət istiqamətləri və burada işləyənlərə də, müraciət edən vətəndaşlara da yaradılan şəraitlə tanış olması, hamımızla salamlaşması, ona verilən məlumatların hər biri ilə maraqlanması bizim üçün çox maraqlı idi. Ancaq onun ilk DOST mərkəzində işləyənlərlə görüşdə biz gənclərə nə dərəcədə inanıb, etimad göstərməsini eşitmək daha xoş idi.

Prezident sosial sahədə həyata keçirilən islahatlardan, Azərbaycan dövlətinin qayğıya ehtiyacı olan insanların hamısını əhatə edən layihələr həyata keçirməsindən və bu sahədəki uğurlardan əhatəli şəkildə danışdı. Sonda isə sözü biz gənclərə olan inamın üstünə gətirdi: "Mən çox şadam ki, burada işləyənlərin, demək olar, hamısı gənclərdir və gənclər üçün yaradılan şərait gələcəyə qoyulan sərmayədir. Çünki gənclər gələcəkdə ölkəmizi idarə edəcəklər, öz töhfələrini verəcəklər. Gənclər bilikli, savadlı, vətənpərvər və qayğıkeş olmalıdırlar. Əminəm ki, siz burada vətəndaşlara çox yüksək xidmət göstərəcəksiniz".

Biz də möhtərəm Prezidentimizi əmin edirik ki, DOST "həqiqətən" sosial qayğıya ehtiyacı olan vətəndaşlarımızın etibarlı dostu olacaq. O ki qaldı burada çalışan gənclərin hazırlıq səviyyəsinə, deyə bilərəm ki, əvvəla, onların hər biri çoxsaylı gənclər arasından seçilib. İkinci, biz bu fəaliyyətə başlayanadək bir ay müddətində həm nazirlikdə, həm də ADA Universitetində intensiv təlimlər keçmişik. Mütəxəssislər bizim informasiya texnologiyaları ilə mükəmməl işləməyimizi yoxlayıb, kömək göstərib, əhalinin həssas zümrələrindən olan insanlarla işləməyi öyrədib, dövlətin bu sahəyə aid olan qanunları, qərarları, fərman və sərəncamları barədə ətraflı məlumat veriblər.

Ən başlıcası, qeyd ediblər ki, Azərbaycan dövlətinin sosial siyasəti məhz DOST mərkəzlərində öz əksini tapır – islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Elə dövlət başçımız da dedi ki, bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcəkdir.

Təlimlərdə onu da eşitdik ki, DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir. Bu isə o deməkdir ki, bizim üzərimizə həm Prezidentin imzaladığı fərman və sərəncamların layiqincə yerinə yetirilməsi, həm də Birinci vitse-prezidentin təşəbbüsünün yüksək səviyyədə icrasına nail olmaq kimi məsuliyyət düşür.

Mən altı ildən çoxdur ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində çalışıram. İkinci dərəcəli dövlət qulluqçusuyam. Yəni istənilən halda dövlət qulluqçusu kimi hansısa perspektivi gözləyə bilərdim. Amma, nazirliyin müvafiq qurumlarından DOST-da fəaliyyət göstərmək təklifini alanda, qətiyyən tərəddüd etmədən dövlət qulluqçusu statusundan ayrılaraq buraya gəldim. Özü də haqlı olaraq.

Bu cümlədəki "təklif" sözünü təsadüfən yazmadım. Çünki nazirliyin indiki rəhbərliyi, sözün həqiqi mənasında, perspektivli, qabiliyyətli gəncləri seçir və onların irəli çəkilməsini təmin edir. DOST-un ilk mərkəzində çalışmaq üçün seçilən 96 nəfərdən biri olduğuma görə də bu seçimi edənlərə minnətdarlığımı bildirirəm.

Vətəndaşlara hansı istiqamətlərdə, hansı səviyyədə xidmət göstərəcəyimizin, necə DOST-luq edəcəyimizin şahidləri isə, ilk növbədə, Yasamal və Səbail rayonlarının bizə müraciət edən sakinləri olacaqlar. Onları məmnuniyyətlə gözləyirik. İnanıram ki, dostluğumuz səmimi və uzunömürlü olacaq.

***Natiq QAÇAYEV,***
***Bakıdakı ilk DOST mərkəzinin əməkdaşı***

# İki ildə 250 minə yaxın iş yeri leqallaşıb



**Son iki ildə Azərbaycanda həyata keçirilən tədbirlər nəticəsində 250 minə yaxın iş yeri leqallaşıb. Bununla da Dövlət Sosial Müdafiə Fonduna ödənilən vəsait 200 milyon manata qədər artıb.**

Bunu Azərbaycan Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Bakıda keçirilən "Dayanıqlı İnkişaf Məqsədləri mövzusunda dövlət-özəl sektor dialoqu"nda deyib.

Ə.Əhmədov bildirib ki, bu, pensiya sisteminin dayanıqlığına bir töhfədir və eyni zamanda özəl sektorda çalışan insanların gələcəkdə etibarlı pensiya sistemi ilə təmin olunması üçün əhəmiyyətli töhfə sayıla bilər.

*"Xalq qəzeti"*

# Sahibkarlara 2,3 milyard manat güzəştli kredit verilib

**İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondu tərəfindən bu günədək 36 min sahibkarlıq subyektinə ümumi dəyəri 5,5 milyard manat olan layihələrə görə 2,3 milyard manat güzəştli kreditlər verilib.**



Bunu iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Bakıda keçirilən "Dayanıqlı İnkişaf Məqsədləri mövzusunda dövlət-özəl sektor dialoqu"nda deyib. Onun sözlərinə görə, bu maliyyələşdirilmiş layihələrin 1 milyard manatı dövlət büdcəsindən ayrılmış vəsaitdir, 1,3 milyard manatı isə məhz geri qaytarılan vəsaitlər hesabına təmin olunub.

Nazir müavini qeyd edib ki, qısa müddətdə qeydiyyatdan keçən sahibkarlıq subyektlərinin sayı 990 mini ötüb.

S.Məmmədovun sözlərinə görə, özəl sektorun inkişafı məqsədilə geniş islahatlar həyata keçirilib. Bu da özəl sektorun payının ümumi daxili məhsulda 85, məşğulluqda 74 faizə çatmasına zəmin yaradıb.

*"Xalq qəzeti"*

# Yeni kompressor stansiyası istismara verilib

**İstismara verilən yeni kompressor stansiyası Qalmaz yeraltı qaz anbarının sutkalıq məhsuldarlığını 30 faiz, yaxud 13 milyon kubmetrədək artırır. Bununla da Qalmaz yeraltı qaz anbarının həcmi 1,5 milyard kubmetrə çatdırılır.**



SOCAR-dan aldığımız məlumatda bildirilir ki, əlavə qaz həcmləri hesabına qış aylarında abonentlərə tələbata uyğun daha böyük həcmdə təbii qaz çatdırılacaq. Mayın 14-də SOCAR-ın prezidenti Rövnəq Abdullayevin iştirakı ilə Qalmaz yeraltı qaz anbarında inşa edilmiş 3 saylı yeni kompressor stansiyasının istismara verilməsi mərasimi keçirilmişdir. Gündəlik məhsuldarlığı 3 milyon kubmetr olan yeni kompressor stansiyası Qalmaz yeraltı qaz anbarının sutkalıq məhsuldarlığını 30 faiz artıraraq 13 milyon kubmetrə çatdıracaq.

Yeni stansiyanı SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutu layihələndirmiş, inşasını "Azneft" İstehsalat Birliyinin sifarişi əsasında SOCAR-ın "Neftqaztikinti" tresti həyata keçirmişdir. Layihəyə əsasən stansiya həm birpilləli, həm də ikipilləli rejimdə işləyəcəkdir.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev demişdir: "Yeraltı qaz anbarlarını genişləndirməkdə əsas məqsədimiz ölkənin artan daxili tələbatını təmin etmək, istehlakçılara təbii qazı maksimum sürət və səmərə ilə çatdırmaqdır. Biz yay aylarında yeraltı qaz anbarlarına təbii qazı tədarük edir, qış aylarında isə tələbat artdıqca istehlakçılara çatdırırıq. Yeni kompressor stansiyası vasitəsi ilə təbii qaz anbara daha böyük həcmlərdə vurulacaq, abonentlərə daha çox mavi yanacaq çatdırılacaqdır."

Qalmaz Yeraltı Qaz Anbarı 1975-ci ildə "Qalmaz" neft-qaz yatağının şimal-qərb hissəsində yaradılmışdır. Qalmaz neft-qaz yatağı Aşağı Kür çökəkliyinin şimal-şərq hissəsində Bakı şəhərindən 75 km cənub-qərbdə yerləşir. Sahəsi 975 hektardır. Qalmaz Yeraltı Qaz Anbarı məhsuldar qatın I, II, Abşeron və Ağcagil horizontlarında yaradılıb.

*Samirə ƏLİYEVA, "Xalq qəzeti"*

# Ordumuzun döyüş və qələbə əzmi yüksəkdir



**Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində hərbi hissələrin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinləri, eləcə də hərbi psixoloqlarla görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, tədbirdə çıxış edən müdafiə naziri cari ilin ötən dövründə döyüş və mənəvi-psixoloji təminat sahəsində fəaliyyətlərin təhlilini apararaq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğını xüsusi vurğulayıb.

Müdafiə naziri bildirib ki, ordu rəhbərliyi şəxsi heyətin azərbaycançılıq ideyası ilə tərbiyə olunmasını diqqət mərkəzində saxlayır, Azərbaycan əsgərinin vətənpərvər ruhda formalaşmasını, Vətənə, dövlətə sadiq xidmət etməsini təmin edir. General-polkovnik Z.Həsənov qeyd edib ki, azərbaycançılıq ideyasına, Heydər Əliyev irsinə yiyələnmiş şəxsi heyət yüksək döyüş əzminə və qələbə ruhuna malikdir, Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə qadirdir.

Orduda həyata keçirilən islahatlar, qazanılan nailiyyətlər, məişət və xidmət şəraitinin yaxşılaşdırılması məqsədilə görülən quruculuq işlərindən danışan müdafiə naziri tərbiyə işinin də planlı şəkildə aparılması, qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazır vəziyyətdə olmaları üçün ideoloji iş və mənəvi-psixoloji təminatın daima gücləndirilməsi ilə bağlı vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

*"Xalq qəzeti"*

**"Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il tarixli fərmanının icrası çərçivəsində ümumilikdə 602 min vətəndaşa kompensasiyanın ödənilməsi nəzərdə tutulub.**

# 506 min vətəndaşa ödənişlər verilib

Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatına görə, bu günə qədər artıq 506 min vətəndaşa ödənişlər verilib ki, bu da ümumi məbləğin 84 faizini əhatə edir. Kompensasiya ödənişləri nəticəsində 243 min nəfərin kompensasiyası ödəniş müddəti keçmiş kreditlərinin azaldılmasına yönəlib. 263 min nəfərə isə nağd və ya plastik kart formasında təqdim olunub.

*"Xalq qəzeti"*



# Azərbaycan "MILEX-2019" sərgisində



**Mayın 15-də Belarus Respublikasının paytaxtı Minsk şəhərində "MILEX-2019" IX beynəlxalq silah və hərbi texnika sərgisinin açılışı olub. Açılış mərasimində Belarusun Baş naziri tərəfindən Prezident Aleksandr Lukaşenkonun tədbir iştirakçılarına təbrik məktubu oxunub. Rəsmi açılışda Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev də iştirak edib.**

Belarus Respublikası Dövlət Hərbi Sənaye Komitəsinin təşkilatçılığı ilə keçirilən sərgidə 10 ölkədən - Belarus, Azərbaycan, Almaniya, İtaliya, Qazaxıstan, Çin, Polşa, Rusiya, Serbiya və Cənubi Afrika respublikalarından 170 şirkət iştirak edir. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi "MILEX" sərgisində ilk dəfə stendlə təmsil olunur.

Bu gün işinə başlayan, iştirakçı sayına və infrastrukturuna görə Şərqi Avropanın böyük sərgilərindən biri hesab olunan "MILEX-2019" sərgisində Müdafiə Sənayesi Nazirliyi tərəfindən əsasən ixrac yönümlü məhsullar - snayper tüfəngləri, avtomatlar, hücum pulemyotları, qumbaraatanlar, minaatanlar, müxtəlif çaplı döyüş sursatları və s. məmulatlar nümayiş etdirilir.

Sərgi çərçivəsində nazir müavini Yəhya Musayevin bir sıra ölkələrin rəsmi nümayəndə heyətləri, eləcə də müdafiə sənayesi sahəsində fəaliyyət göstərən aparıcı şirkət və firmaların nümayəndələri ilə görüşləri təşkil olunacaq.

Sərgi işini mayın 18-dək davam etdirəcək.




**Çin Xalq Respublikasının Şanxay şəhərində "Sial China 2019" beynəlxalq sərgisi öz işinə başlayıb. Sərgidə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan ixrac missiyasına daxil olan 12 Azərbaycan şirkəti məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş etdirir.**

# Azərbaycan məhsulları "Sial China 2019" sərgisində



Qeyd edək ki, Azərbaycan şirkətləri "Sial China 2019" sərgisinə böyük maraq göstərirlər. Belə ki, sərgidə qeyd edilən şirkətlərlə yanaşı, əlavə olaraq 7 Azərbaycan şirkəti fərdi qaydada iştirak edir. Bundan əlavə, Çinin Şanxay və Urumçi şəhərlərində fəaliyyət göstərən ticarət və şərab evləri vasitəsilə də Azərbaycan məhsulları "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş olunur.

Sərgi çərçivəsində Azərbaycan sahibkarları xarici ölkələrdən olan həmkarları ilə görüşlər keçirir, məhsulların satışına dair müzakirələr aparırlar.

*Samirə ƏLİYEVA, "Xalq qəzeti"*

**Azərbaycan Turizm Bürosu tərəfindən mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək UEFA-nın Avropa Liqasının final oyunu ilə əlaqədar ölkəyə gələcək qonaqların qabaqcadan məlumatlandırılması məqsədilə veb-sayt hazırlanıb.**



# UEFA-nın Avropa Liqasının final oyununa gələnlər üçün xüsusi sayt hazırlanıb

Dövlət Turizm Agentliyindən Trend-ə verilən məlumata görə, informativ xarakter daşıyan https://bakufinal.azerbaijan.travel/ ünvanında yerləşən saytda azarkeşləri maraqlandıran suallara xüsusi bölmələr üzrə cavablar yerləşdirilib.

Bakıya uçuş həyata keçirən hava yolları şirkətlərinin birbaşa və çarter reysləri barədə məlumat yerləşdirilən saytda viza əldə etmək qaydaları və şərtləri, hotellər, oyunun keçiriləcəyi Bakı Olimpiya Stadionu və burada təşkil olunacaq təhlükəsizlik tədbirləri barədə dolğun məlumat verilir.

İnformativ xarakterli saytda, həmçinin Bakının turizm əhəmiyyətli məkanları, Nizami küçəsi, İçərişəhər, Heydər Əliyev Mərkəzi, eyni zamanda milli kulinariya nümunələrinin dadına baxmaq üçün kafe və restoranlar, əyləncə məkanları haqqında məlumat verilir, paytaxt nəqliyyatının formaları, "Baku Card"dan istifadə qaydaları izah olunur.

*"Xalq qəzeti"*




# e-sistem Avropanın "Yaxşı Təcrübə" xüsusi mükafatına layiq görülüb



**Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA) tərəfindən Avropa regionu üzrə təşkil edilən "Yaxşı Təcrübə" müsabiqəsində Azərbaycanın daha bir sosial layihəsi - əlilliyin qiymətləndirilməsi üzrə elektron sistem müsbət dəyərləndirilərək BSTA-nın xüsusi mükafatına layiq görülüb.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumatda bildirilir ki, təşkilatın ölkəmizdə təşkil etdiyi Avropa Regional Sosial Təminat Forumu çərçivəsində mükafat BSTA-nın rəsmiləri tərəfindən nazirliyə təqdim edilib.

Əlilliyin qiymətləndirilməsi qeyd olunan e-sistem vasitəsilə məmur-ekspert təması olmadan həyata keçirilir. Belə ki, səhiyyə müəssisəsi tərəfindən həmin e-sistemə daxil edilən göndəriş əlilliyi qiymətləndiriləcək şəxsin kimliyinə dair məlumatlar adsızlaşdırıldıqdan sonra tibbi-sosial ekspertiza xidmətinə yönəldilir. Nəticədə, yalnız göndərişdəki xəstəliyə dair məlumat əsasında, əlillik təyin edilib-edilməməsinə dair şəffaf və obyektiv şəkildə qərar qəbul edilir.

*"Xalq qəzeti"*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada iftar verilib

❒ ***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Rusiya Müftilər Şurası tərəfindən Moskvadakı "Poklonnaya qora"da qurulmuş "Ramazan çadırı"nda "Azərbaycan Günü" təşkil edilib və iftar süfrəsi açılıb.***

İftardan əvvəl Azərbaycan ruhanilərinin nümayəndəsi Müqəddəs "Qurani-Kərim"dən ayələr oxuyub, axşam duası verib.

Tədbirdə ictimai xadimlər, Azərbaycan diasporunun nümayəndələri, müxtəlif millətlərdən olan 1000-ə yaxın müsəlman iştirak edib. Gecədə "İxlas" Fondunun nümayəndəsi Anas Məmmədov, "Əhli-beyt" dini təşkilatının sədri Nizami Baloğlanov çıxış edərək iftar süfrəsinin təşkilinə görə tədbir iştirakçıları adından Heydər Əliyev Fonduna və şəxsən Fondun vitse-prezidenti Leyla Əliyevaya təşəkkür ediblər. Onlar qeyd ediblər ki, "Poklonnaya qora"da "Ramazan çadırı" təşkil edilməsi artıq ənənəyə çevrilib və müsəlmanlar üçün bu mühüm tədbirdə Azərbaycan, Heydər Əliyev Fondu hər il iştirak edir.

Tədbirin aparıcısı Rusiya Müftilər Şurası adından Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya, habelə "Ramazan çadırı-2019" tədbirinə təşkilati, yaradıcı və mənəvi töhfəyə görə Fondun nümayəndəsi Ayan Həsənovaya təşəkkürnamə təqdim edib.

Azərbaycanın Rusiyadakı səfirliyinin müşaviri Vüqar İmaməliyev bütün müsəlmanları Ramazan ayı münasibətilə təbrik edib, "Ramazan çadırı"nın təşkilinə görə Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevaya və Moskva Müsəlmanları Ruhani İdarəsinə təşəkkürünü bildirib.

"Zəkat" Fondunun rəhbəri Rifat İzmayılov xeyriyyəçiliyin vacibliyi barədə çıxış edərək deyib: "Biz, dindarlar xeyriyyəçilik trendi yaratmalıyıq. Ona görə ki, "xeyriyyəçilik" anlayışını başqalarına sirayət etməklə biz dünyanı daha da yaxşılaşdırır, onu daha xeyirxah edirik. Heydər Əliyev Fondu da, digər xeyriyyə fondları da buna çalışır, yaxşılıq etməyin asan olmasını şəxsi nümunələrində göstərirlər".

Sonra müsəlmanlar iftarlarını açıb, Azərbaycan milli mətbəxinin yeməklərini və şirniyyatını dadıblar.

İftarda Heydər Əliyev Fondunun 15 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Tədbirdə "Bakı" ansamblının və müğənni Samir Salamın ifasında Azərbaycan milli musiqisi səslənib. "İman" müsəlman məktəbinin şagirdləri Ramazan ayına həsr edilmiş səhnələşdirilmiş proqram təqdim ediblər.



Qeyd edək ki, Rusiya Müftilər Şurasının mühüm layihəsi olan "Ramazan çadırı" xalqlar arasında dostluğu möhkəmlətmək, Moskvada yaşayan və islam dininə etiqad bəsləyən çoxsaylı xalqların nümayəndələrini birləşdirmək naminə həyata keçirilir.

Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyi hər il bu layihədə fəal iştirak edir, dindarlar üçün iftar təşkil edir.

***Fəridə ABDULLAYEVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***
**Moskva**

# Bakıda ədalət mühakiməsi sistemində insan haqlarına dair beynəlxalq seminar işə başlayıb

❒ ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində ölkəmizdə müasir standartlar səviyyəsində kompleks qanunverici və institusional tədbirlərin görülməsi ilə yanaşı, bu istiqamətdə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi daim diqqətdə saxlanılır.***

Bu sahədə həyata keçirilən praktiki tədbirlərin davamı olaraq mayın 15-də Bakıda Beynəlxalq Prokurorlar Assosiasiyasının və Azərbaycan Respublikası Prokurorluğunun birgə təşkilatçılığı ilə "Ədalət mühakimə sistemində insan haqları ilə bağlı qarşıda duran məsələlər" mövzusunda beynəlxalq seminar işə başlayıb.

Baş Prokurorluğun və Məhkəmə-Hüquq Şurasının AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında keçirilən tədbirdə beynəlxalq səviyyəli ekspertlər qismində dəvət edilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının sabiq prezidenti və Paris Apellyasiya Məhkəməsinin baş prokuroru Falletti Fransua, Niderland Apellyasiya Məhkəməsinin baş prokuroru, Amsterdam Universitetinin hüquq fakültəsinin professoru Miranda de Meyer, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi Stanislav Pavlovski (Moldova), eləcə də ölkəmizin müxtəlif instansiya məhkəmələrinin hakimlərindən, habelə prokurorluq orqanlarının əməkdaşlarından ibarət 40 nümayəndə iştirak edib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi, Beynəlxalq Prokurorlar Assosiyasiyasının vitse-prezidenti Kamran Əliyev demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçən Azərbaycan Respublikasının insan və vətəndaş hüquq və azadlıqlarına hörməti və bu meyarların qorunmasını qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının ümdə vəzifəsi kimi müəyyən etdiyini bildirib. Qeyd edilib ki, Prezident İlham Əliyevin siyasi rəhbərliyi ilə ölkəmiz bir çox universal və regional xarakterli beynəlxalq təşkilatlara üzv olub və çoxsaylı beynəlxalq müqavilələrə qoşulub. Həmin mötəbər sənədlərin mühüm hissəsi insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlib.

Görülən işlərin bariz nümunəsi kimi dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanının əhəmiyyəti xüsusi vurğulanıb. Bu mühüm sənəd ölkəmizdə beynəlxalq və milli qanunvericiliyin vəhdəti şəklində həyata keçirilən köklü məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsi kimi qiymətləndirilib.

K.Əliyev çıxışında ölkəmizin hüquq-mühafizə orqanları ilə Beynəlxalq Prokurorlar Assosiasiyası arasında qarşılıqlı əməkdaşlıq münasibətlərinin hazırkı vəziyyəti və inkişaf perspektivləri haqda ətraflı məlumat verib.

Məhkəmə-Hüquq Şurası aparatının rəhbəri Cavid Hüseynov ölkəmizdə məhkəmə sisteminin qabaqcıl beynəlxalq standartlar səviyyəsində təşkilinin xüsusi diqqətdə saxlanıldığını, bu istiqamətdə ardıcıl və davamlı tədbirlərin həyata keçirildiyini qeyd edib.

Ekspertlər Fransua Falletti, Miranda de Meyer və Stanislav Pavlovski ölkəmizdə ədalət mühakiməsi və insan hüquqları sahəsində həyata keçirilən islahatları müsbət dəyərləndirərək, təlimin istər hakimlərin, istərsə də prokurorluq orqanları əməkdaşlarının peşəkarlığının artırılması və effektivliyin təmin edilməsi baxımından faydalı olacağına əminliklərini bildiriblər.

Mayın 17-dək davam edəcək beynəlxalq seminarda ekspertlər tərəfindən təqdimatların keçirilməsi, eləcə də praktiki məsələlərin həlli ilə bağlı tədbirlərin təşkili nəzərdə tutulub.

# Məhkəmə-Hüquq Şurasının iclası keçirilib

❒ ***Məhkəmə-Hüquq Şurasının (MHŞ) iclası keçirilib. Şuradan bildiriblər ki, iclasda məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi haqqında dövlətimizin başçısı İlham Əliyevin 2019-cu il 3 aprel tarixli fərmanı üzrə görülən işlər müzakirə edilib.***

Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilən tədbirdə bildirilib ki, fərmanın icrasından irəli gələn məsələlər dərhal bütün apellyasiya məhkəmələri sədrlərinin, hakim assosiasiyaları rəhbərlərinin, vətəndaş cəmiyyəti və KİV nümayəndələrinin iştirakı ilə Şurada geniş müzakirə edilərək kompleks tədbirlər müəyyən olunub.

Qarşıya qoyulmuş məsələlərin icrasının təşkili məqsədilə Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası, Ali Məhkəmə və Baş Prokurorluğun məsul vəzifəli şəxslərindən ibarət xüsusi işçi qrupu yaradılıb. Ədalət mühakiməsinin səmərəliliyinin artırılması, sahibkarlığın inkişafının sürətlənməsi, məhkəmələrə müraciət imkanının asanlaşması, "Elektron məhkəmə" informasiya sisteminin tam tətbiqi üzrə vətəndaş cəmiyyəti və KİV nümayəndələrinin iştirakı ilə geniş və silsilə ictimai müzakirələr keçirilib, televiziya və digər kütləvi informasiya vasitələrində yüzlərlə çıxışlar edilib.

Həmçinin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə mütərəqqi beynəlxalq təcrübələrin öyrənilməsi məqsədilə xarici dövlətlərə ezamlar təşkil edilib, birgə işçi qrupu tərəfindən bu sahədə bir sıra mühüm qanunvericilik layihələri hazırlanıb.

İclasda hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə Şurada "qaynar xətt"in yaradılması, zəruri layihələrin hazırlanması vurğulanıb. Qeyd edilib ki, məhkəmələrdə monitorinqlər keçirilərək qeyri-prosessual münasibətlərə şərait yaradan və vətəndaşların haqlı narazılığını doğuran pozuntular yerində dərhal aradan qaldırılıb, daha kobud nöqsanlara yol vermiş iki hakim barədə intizam icraatı başlanılıb.

Eyni zamanda, iclasda fərmandan irəli gələn məsələlər üzrə əlavə tədbirlər müəyyən olunub, təcrübəli hakimlərin və "ASAN xidmət"lə əməkdaşlıq çərçivəsində könüllülərin Şuranın fəaliyyətinə cəlb olunması təqdir edilib.

Şurada qanunvericiliyin tələblərinin kobudcasına pozulmasına və korrupsiyaya şərait yaradan hallara, süründürməçiliyə və digər pozuntulara yol verdiklərinə görə bir sıra hakimlər intizam məsuliyyətinə cəlb edilib, o cümlədən Tərtər Rayon Məhkəməsinin hakimi Mübariz Məmmədovun hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, Quba Rayon Məhkəməsinin hakimi Zamin Tahirovun tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi barədə qərarlar qəbul edilib.

***AZƏRTAC***

# *Suraxanıda tibbi müayinə uğurla başa çatıb*

**Prezident İlham Əliyevin 2019-cu il fevralın 11-dən mayın 11-dək bütün ölkə vətəndaşlarının pulsuz tibbi müayinədən keçirilməsi ilə bağlı tapşırığı Suraxanı rayonunda da böyük ruh yüksəkliyi ilə icra edilmişdir. Rayon icra hakimiyyəti (RİH) başçısının 5 fevral 2019-cu il tarixli sərəncamı ilə tibbi müayinənin yüksək səviyyədə, operativ təşkili məqsədilə müvafiq komissiya yaradılmış, müəssisə və idarə kollektivlərinin tibbi müayinədənkeçmə qrafiki tərtib olunmuşdur. Rayon ərazisindəki 4 xəstəxanada, 4 poliklinikada və 1 ambulatoriyada əhalinin pulsuz tibbi müayinəsi uğurla keçirilmişdir.**



Əhalin tibbi müayinəsinin aparıldığı dövrdə bu sosial tədbirin mütəşəkkilliyi məqsədilə RİH başçısının inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri, bələdiyyələr və Mənzil-Kommunal Təsərrüfatı Birliyinin əməkdaşları tərəfindən əhali arasında maarifləndirici tədbirlər həyata keçirilmişdir. Görülən işlərin nəticəsidir ki, əhalinin tibbi müayinəsi uğurla başa çatmışdır.

Suraxanı üzrə 180 min 668 nəfər (18 yaşdan yuxarı) sakinin və rayonda məskunlaşan məcburi köçkünün tibbi müayinədən keçirilməsi nəzərdə tutulmuşdur. Hər bir vətəndaş yaşadığı əraziyə yaxın olan tibb müəssisələrində müayinə olunmuşdur. Rayon üzrə 159 min 15 nəfərin (əhalinin 88,01 faizi) və 127 müəssisə kollektivinin tibbi müayinəsi aparılmışdır. Onlardan 9 min 33 nəfəri rentgen, 5 min 102 nəfəri USM aparatından, 16 min 568 nəfəri laboratoriya və 3 min 265 nəfəri EKQ müayinəsindən keçmişdir. Bu zaman 4 min 41 nəfərdə müxtəlif xəstəliklər aşkarlanmış, 137 nəfər stasionar müalicəyə cəlb edilmiş, 152 nəfər təkrar müayinə və müalicə olunmaq üçün paytaxtın müxtəlif xəstəxanalarına göndərilmişdir.

Tibbi müayinənin keçirildiyi dövrdə səhiyyə müəssisələrində işləyən həkimlərdən ibarət səyyar briqadalar fəaliyyət göstərmişdir. Həmin briqadalar məktəblərdə, uşaq bağçalarında və poliklinikaya gələ bilməyən yaşlı insanlara evlərində tibbi xidmət göstərmiş, aşkara çıxarılan xəstəliklər üzrə müalicə kursları təyin edilmişdir.

Rayonda tibbi müayinənin aparıldığı səhiyyə ocaqlarından biri də 24 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının poliklinika şöbəsi olmuşdur. Xəstəxananın baş həkimi Azər Məmmədov bildirmişdir ki, tibbi müayinələrin aparılması üçün şöbə əvvəlcədən tam hazır vəziyyətə gətirilmiş və müayinə uğurla başa çatmışdır. A.Məmmədov vurğulamışdır ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, vətəndaşların tibbi müayinəsi əhalinin sağlamlığının qorunmasına, xəstəliklərin vaxtında aşkarlanmasına xidmət edir. Poliklinika 36 min 952 nəfər böyük əhaliyə xidmət göstərir.

Tibbi müayinə dövründə 30 min 32 nəfərin tibbi müayinəsi aparılmışdır. Onlardan 2 min 840 nəfəri rentgen, 790 nəfəri USM aparatından, 4 min 118 nəfəri laboratoriya və 684 nəfəri EKQ müayinəsindən keçmiş, 1162 nəfərdə müxtəlif xəstəliklər aşkar olunmuş, 31 nəfər stasionar müalicəyə və 30 nəfər paytaxtın digər xəstəxanalarına müayinə üçün göndərilmişdir.

Tibbi müayinədən razı qalan sakinlər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbəri İlham Əliyevə minnətdarlıqlarını bildirirlər.

***"Xalq qəzeti"***

# "Mənim Şamaxım" rəsm müsabiqəsinə yekun vurulub

❒ ***Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibəti ilə 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan olunub.***



Dahi şair Nəsimi irsinin təbliği rayon sakinləri arasında incəsənətə marağın artırılması, həmçinin vətənpərvərlik və doğma yurda məhəbbət hissinin aşılanması, milli adət-ənənələrin təbliği, uşaq və yeniyetmələrin estetik və bədii dünyagörüşünün formalaşdırılması, istedadlı uşaq və gənclərin üzə çıxarılması məqsədilə Mədəniyyət Nazirliyi, Rəssamlar İttifaqı və Şamaxı Rayon İcra Hakimiyyətinin dəstəyi, İsmayıllı Regional Mədəniyyət İdarəsi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə "Nəsimi ili" çərçivəsində şamaxılı uşaqlar, yeniyetmələr və gənclər arasında "Mənim Şamaxım " adlı rəsm müsabiqəsi elan olunub.

Müsabiqəyə Şamaxı rayonundan 70-ə yaxın uşaq, yeniyetmə və gənc qatılıb, 150-yə yaxın rəsm əsəri sərgidə nümayiş etdirilib. İştirakçılar əsərlərində əsasən bu qədim diyarın dahi şəxsiyyətlərini, əsasən də böyük Azərbaycan şairi İmadəddin Nəsiminin obrazını, tarixi abidələrini, sənət nümunələrini, müxtəlif peşə sahiblərinin obrazlarını təsvir ediblər.

Tədbirdə çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov 2019-cu ilin dövlət başçımız tərəfindən "Nəsimi ili" elan olunduğunu qeyd etmiş, onun klassik Azərbaycan ədəbiyyatına verdiyi töhfələrdən söhbət açmışdır. Natiq 2019-cu ilin "Nəsimi ili" elan edilməsini Nəsimi yaradıcılığına, onun irsinə böyük diqqət olmaqla yanaşı, bütövlükdə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə verilən dəyər kimi yüksək qiymətləndirmişdir.

Sərgidə nümayiş üçün seçilən işlərin müəllifləri və fəal tədris mərkəzləri diplom və təşəkkürnamələrlə təltif olunub, seçilmiş 20 əsərin müəllifi "Azərbaycanım" Uşaq Rəsm Festivalı çərçivəsində keçiriləcək müsabiqəyə dəvət edilib. Tədbirdə, həmçinin Əməkdar rəssam Natiq Səfərovun ustad dərsi, rayon musiqi kollektivlərinin konsert proqramı təqdim olunub.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***

# *Binəqədi məktəbliləri tullantıları sənətə çeviriblər*

**Bakı şəhərində sanitar-təmizlik aylığının keçirilməsi haqqında Bakı Şəhər İcra Hakimiyyətinin tapşırığına əsasən yaz-yay mövsümünün başlanması ilə əlaqədar Binəqədi rayonunun sanitar-təmizliyini təmin etmək, abadlıq və yaşıllıqları qoruyub saxlamaq və yaxşılaşdırmaq məqsədilə rayon icra hakimiyyəti (RİH) başçısının müvafiq sərəncamı ilə "Rayonumuzu təmiz saxlayaq" layihəsi çərçivəsində Binəqədi RİH-in təşkilatçılığı ilə 100 nömrəli tam orta məktəbdə tədbir keçirilib.**

Tədbirdə RİH başçısının müavini Aygün Əliyeva, RİH başçısı Aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nicat Allahverdiyev, baş məsləhətçi Elnur Məmmədov, məktəbin müəllim və şagird kollektivi, valideynlər iştirak ediblər.



Qonaqlar əvvəlcə şagirdlərin əl işlərindən ibarət rəsm əsərləri və "Tullantıdan sənətə" adlı sərgi ilə tanış olublar.

Çıxış edən 100 nömrəli tam orta məktəbin direktoru Gülnarə Məmmədova belə sərgilərin əsas məqsədinin uşaqlara ətraf mühiti təmiz saxlamağın vacibliyini aşılamaq, onları lazımsız saydıqları əşyaları düşünmədən zibil qutularına atmaq vərdişindən çəkindirmək olduğunu bildirib. Natiq yararsız əşyaların, tullantı materiallarının məktəblilərin əllərində daha gözəl forma ala biləcəyini vurğulayıb.

İcra hakimiyyəti başçısının müavini Aygün Əliyeva ekoloji siyasətdə mühüm önəm daşıyan ətraf mühitin sağlamlaşdırılması sahəsində müsbət nəticə əldə etmək məqsədilə respublikamızda Avropa qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmış bir sıra mühüm normativ sənədlər qəbul olunduğunu diqqətə çatdırıb. O, bəzi iri şəhərlərdə sənaye və məişət tullantılarının uzun illər yığılıb istifadəsiz qalmasının gərgin ekoloji vəziyyətin yaranması ilə nəticələndiyini və bunun ağır fəsadlarla müşahidə olunduğunu xatırladıb.

Sonda şagirdlərin ifasında şeirlər, mahnılar və səhnəciklər nümayiş olunub.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

# Azərbaycanın hava limanları dörd ayda 1 milyon 450 min sərnişinə xidmət göstərmişdir

***Heydər Əliyev Beynəlxalq Aeroportu 2019-cu ilin ilk dörd ayı ərzində 1,23 milyon sərnişinə xidmət göstərmişdir.***



Beynəlxalq reyslərlə ümumilikdə 1,06 milyon sərnişin daşınmışdır. Göstərilən müddət ərzində aeroportun baza aviadaşıyıcıları – AZAL və "Buta Airways" müvafiq olaraq 511 min və 130 min 500 sərnişin daşımışdır. Bu isə ötən ilin göstəricisindən 6 min nəfər çoxdur.

Beynəlxalq reyslərin ümumi sayının 32,3 faizi AZAL-ın, 12,3 faizi "Buta Airways"in payına düşmüşdür. Xarici aviaşirkətlərin payı 55,4 faiz faiz təşkil etmişdir.

Ümumilikdə, Azərbaycanın beynəlxalq hava limanları 2019-cu ilin ilk dörd ayı ərzində 1,45 milyon sərnişinə xidmət göstərmişdir. Bu, Cənubi Qafqazın bütün hava limanları arasında rekord göstəricidir.

Hazırda 26 sərnişin aviaşirkəti Heydər Əliyev Beynəlxalq Aeroportuna birbaşa aviareys yerinə yetirir. Gəncə və Naxçıvan hava limanlarından Moskvaya və İstanbula, Qəbələdən Moskvaya birbaşa uçuşlar həyata keçirilir. AZAL Lənkərandan Moskvaya və geri istiqamətə müntəzəm birbaşa aviareyslər həyata keçirir. Həmçinin "flyNas", "Kuwait Airways" və Türkiyənin loukosteri "Pegasus"un uçuşlarının bərpa edilməsi planlaşdırılır.

Heydər Əliyev Beynəlxalq Aeroportu (IATA: GYD) sərnişin və yük daşımalarının, uçuş-enmə əməliyyatlarının həcminə, aerovağzal kompleksinin sahəsinə və yük terminalının buraxılış gücünə görə Azərbaycanın və regionun ən böyük hava limanıdır.

Heydər Əliyev Beynəlxalq Aeroportunun mətbuat xidməti bildirir ki, paytaxt aeroportu ardıcıl olaraq üç ildir ki, Rusiya və MDB ölkələrinin bütün hava limanları arasında göstərilən xidmət səviyyəsinə görə "Skytrax World Airport Awards" versiyasına görə ən yaxşılar siyahısına başçılıq etmiş, həmçinin maksimal "5 Ulduz" statusuna layiq görülmüşdür. 2019-cu ildə Heydər Əliyev Beynəlxalq Aeroportu "Sky Travel Awards" versiyası üzrə 10 milyona qədər sərnişin dövriyyəsi ilə ən yaxşı hava limanı seçilmişdir.

***"Xalq qəzeti"***

## Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu *2019-cu il üzrə kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi sahəsində tələb olunan malların və xidmətlərin satınalınması məqsədilə keçiriləcək*

### *AÇIQ TENDERƏ DƏVƏT EDİR*

**Açıq tender bir LOT üzrə keçirilir:**

Lot-5. 22 iyul Milli Mətbuat Günü münasibətilə keçiriləcək fərdi jurnalist yazıları müsabiqəsi qaliblərinin mükafatlandırılması və bayram tədbirinin təşkili xidmətlərinin satınalmması.

Maraqlananlar tenderin əsas şərtlər toplusunu Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun ofisindən ala bilərlər:

Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 529-cu məhəllə, Beynəlxalq Mətbuat Evi.

Tenderdə iştirak haqqı:
Lot - 5 - 85 manat
Hesab: AZ08CTRE00000000000005547601
VÖEN 1001667391
Bank: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
M/H: AZ41NABZ01360100000000003944
S.W.İ.F.T: CTREAZ22
Büdcə səviyyəsinin kodu: 7,
Büdcə təsnifatının kodu: 142340
İştirak haqqı heç bir halda geri qaytarılmır.

Malgöndərənlər (podratçılar) iddiaçı statusu qazanmaq üçün aşağıdakı sənədləri rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
10. Digər sənədlər:

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi və maliyyə vəziyyəti.
- Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Malgöndərən (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 21 iyun 2019-cu il tarixinə qədər Tender Komissiyasına təqdim etməlidir.

Tenderlə əlaqədar əlavə məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxs Elşad Tağıyevə (telefonlar 012 538 40 48, 012 537 19 41, 012 537 19 42) müraciət edə bilərlər.

İddiaçılar tender təklifini və təklifin bank zəmanətini Azərbaycan dilində, 2 nüsxədə, imzalanmış, möhürlənmiş, ikiqat bağlanmış zərfdə 4 iyul 2019-cu il saat 17:00-dək Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 529-cu məhəllə, Beynəlxalq Mətbuat Evi ünvanında yerləşən inzibati binasında Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 5 iyul 2019-cu il saat 11:00-da Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunda açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## *Azərbaycan Respublikasının Maliyyə Nazirliyi*

### Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə vəsiqələrinin yüksək poliqrafik səviyyədə hazırlanması məqsədilə

### AÇIQ TENDER ELAN EDİR

Tender keçirən- Azərbaycan Respublikası Maliyyə Nazirliyi

Ünvan- Bakı şəhəri, AZ 1022, S. Vurğun küçəsi 135.

1.Açıq tenderə yüksək poliqrafik səviyyədə CİP Bakı şərtilə Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün 100 000 ədəd və Azərbaycan Respublikası ərazisində daimi yaşamaq 10 000 ədəd icazə vəsiqələrinin çapı təklif olunur.

2. Tender proseduru 2019-cu il iyulun 4-ü saat 11.00-da Azərbaycan Respublikası Maliyyə Nazirliyinin konfrans zalında (III mərtəbə, 338-ci otaq) keçiriləcəkdir.

3. Tenderdə iştirak üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
3.1. Tenderdə iştirak etmək üçün ərizə.
3.2. İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödəniş qəbzi).

4. Tender təklifləri 2019-cu il iyulun 3-ü saat 11.00-dək Azərbaycan Respublikası Maliyyə Nazirliyinin vergi siyasəti və gəlirlər şöbəsinin "Müdafiəli sənədlərin dövriyyəsi" sektoruna təqdim olunmalıdır.

5. İstehsal şəraiti və məhsulları beynəlxalq standartların tələblərinə cavab verən, icazə vəsiqələrinin (və ya analoji məhsulların) çapı sahəsində iş təcrübəsi, peşəkarlığı, idarəetmə səriştəsi, texniki və maliyyə imkanları olan, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyənləşdirilmiş şərtlərə əməl edən iddiaçılar tenderdə iştirak edə bilərlər. Vasitəçilik fəaliyyətini həyata keçirən və maddi - texniki bazası (öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı) olmayan müəssisələr tenderdə iştirak edə bilməzlər.

6. Tender təkliflərində iddiaçı tender predmetini səciyyələndirən bütün parametrləri, o cümlədən işin icrasının texniki cəhətlərini, icra müddətini, dəyərini, hesablaşma formasını və işin icra yerini göstərməlidir.

7. İcazə vəsiqələri qoruyucu elementlərə malik olmalı və yüksək poliqrafik səviyyədə hazırlanmalıdır.

8. İddiaçının yazılı şəkildə hazırladığı tender təklifi iki zərfə qoyulmalı və hər iki zərf iddiaçı tərəfindən imzalanıb möhürlənməlidir.

9. İddiaçı təqdim etdiyi sənədlərdə özü haqqında aşağıdakı məlumatları bildirməlidir:
9.1. İddiaçının tam adı, ünvanı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə.
9.2. İddiaçının texniki-istehsalat (işinin əsas istiqamətləri) fəaliyyəti barədə məlumat.
9.3. İddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə (əgər daha az müddət fəaliyyət göstərirsə, həmin fəaliyyəti dövrü haqqında) bank tərəfindən verilmiş arayış.

10. İddiaçı təklifin dəyərinin 1 faizi həcmində bank təminatı təqdim etməlidir.

11. İcazə vəsiqələrin hazırlanması məqsədilə keçirilən tenderdə iştirak edən iddiaçılar Maliyyə Nazirliyinə müraciətdən və tenderdə iştirak üçün 500 (beş yüz) manat ödədikdən sonra tenderin şərtlər toplusunu ala bilərlər.

Tenderdə iştirak haqqı bu hesaba köçürülməlidir:
VÖEN - 1400108191
Ünvan- Bakı şəhəri, S. Vurğun küçəsi 135
Dövlət Xəzinədarlıq Agentliyi
Kod- 210005
M/h- AZ41NABZ01360100000000003944
VÖEN- 1401555071
S.W.İ.F.T. BİK: CTREAZ22
Maliyyə Nazirliyi kitab - 002527-2108571
H/h- AZ83CTRE00000000000002108571
Büdcə səviyyəsinin kodu- 7, təsnifatın kodu-142340

12. Tender təklifinin qəbulu və əlavə məlumat almaq üçün əlaqələndirici şəxs Azərbaycan Respublikası Maliyyə Naziliyinin vergi siyasəti və gəlirlər şöbəsi müdirinin müavini-sektor müdiri Aydın İsayevdir. Əlavə məlumat almaq üçün 2019-cu il mayın 17-dən iyulun 3-ü saat 10.00-dan 17.00-dək müraciət etmək olar (fasilə saat 13.00-dan 14.00-dək).

Ünvan- Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1022,
S.Vurğun küçəsi 135, III mərtəbə, 353-cü otaq.
Telefon- (99412) 404-46-94 E-mail: aydin.isayev@maliyye.gov.az

13. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuş və rus dilinə tərcümə edilmişdir.

14. Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçirilir.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti

***çap avadanlıqları üçün kartriclərin satın alınması məqsədilə***

### *KOTİROVKA SORĞUSU ELAN EDİR*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Bakı şəhəri, Neftçilər prospekti 153 nömrəli ünvana müraciət edə bilərlər.

Əlaqələndirici şəxs - Minarə Rəhimova, telefon- (+99412) 310-11-10, daxili nömrə 7718).

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanıb möhürlənmiş kotirovka təkliflərini 17 may 2019-cu il saat 15.00-dan gec olmamaq şərtilə yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər.

Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri 20 may 2019-cu il saat 16.00-da Bakı şəhəri, Neftçilər prospekti 153 nömrəli ünvanda (Port Baku Towers) açılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti

***gömrük rəsmiləşdirilməsi ilə bağlı müvafiq xidmətlərin satın alınması məqsədilə***

### *KOTİROVKA SORĞUSU ELAN EDİR*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Bakı şəhəri, Neftçilər prospekti 153 nömrəli (Port Baku Towers) ünvana müraciət edə bilərlər. Əlaqələndirici şəxs -Tural Quluzadə, telefon- (077) 277-32-60.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanıb və möhürlənmiş kotirovka təkliflərini 21 may 2019-cu il saat 17.00-dan gec olmamaq şərti ilə yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri 22 may 2019-cu il saat 16.00-da Bakı şəhəri, Neftçilər prospekti 153 nömrəli (Port Baku Towers) ünvanda açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Xalq qəzeti"nin 10 və 29 mart 2019-cu il tarixli nömrələrində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunların Baş İdarəsinin 2019-cu ildə malların alınması və xidmətlərin göstərilməsinin satın alınması məqsədilə dərc edilmiş 6 lotdan ibarət açıq tenderində 1-ci lot "xüsusi kağız və mexaniki üsulla enib-qalxan hədəflərin" satın alınması üçün "NEQ" MMC, 2-ci lot "yanacaqpaylayan kalonkaların müayinəsinin, yanacaqdaşıyan avtomobillərin çənlərinin kalibrlənməsinin və pasportlaşmasının" satın alınması üçün "Kvazar" Elmi-Texniki İstehsalat Mərkəzi, 3-cü lot "dəftərxana ləvazimatlarının" satın alınması üçün "EXPRESS DELTA A" MMC, 6-cı lot "kartriclərin və antivirus proqramının" satın alınması üçün isə tender komissiyasının qərarı ilə "Delta Tech" MMC qalib elan edilmişlər. Qalib təşkilatlarla müvafiq müqavilələr imzalanmışdır.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunların Baş İdarəsi tenderə maraq göstərən bütün iddiaçılara öz təşəkkürünü bildirir, onlara işlərində müvəffəqiyyətlər arzulayır və gələcəkdə faydalı əməkdaşlığa dəvət edir.

***Daxili Qoşunların tender komissiyası***

## *"Azercell"in "Mobil Diş Klinikası"ndan təmənnasız tibbi müayinələr...*

**Korporativ Sosial Məsuliyyət Strategiyasında müasir texnologiyaların köməyilə sağlamlığa dəstəyi hədəfləyən "Azercell" fəaliyyəti boyunca bir sıra sosial layihələri həyata keçirməkdədir. "Azercell"in təşəbbüsü ilə yaradılan "Mobil Diş Klinikası" da bu layihələrdəndir. Həm Bakı, həm də regionlardakı uşaq evlərinə səfər edən klinika növbəti diş müayinələrini Bilgəh qəsəbəsi, 11 saylı inteqrasiya təlimli internat məktəbində təşkil edib. Bir ay boyunca davam edən səfərdə 71 uşaq müayinə və lazımi müalicə ilə təmin edilib.**




Azərbaycandakı əksər uşaq evlərində stomatoloji kabinetin olmamasını nəzərə alan "Azercell Telekom" MMC "Mobil Diş Klinikası"nı ən müasir tibbi avadanlıqla təchiz edib. Vurğulamaq istərdik ki, klinikanın əsas hədəfi internat məktəblərinin şagirdlərini, valideyn himayəsindən məhrum uşaqları, qaçqın və məcburi köçkün düşərgələrində məskunlaşmış körpələri müayinə və müalicə etməkdir.

Qeyd edək ki, bütün müayinə və müalicə tədbirləri "Azercell"in dəstəyi ilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir.

*"Xalq qəzeti"*

## "Suraxanı Bazar" ASC səhmdarlarının nəzərinə!

**21 iyun 2019-cu il saat 11.00-da səhmdarların ümumi yığıncağı keçiriləcəkdir.**

***Gündəlikdəki məsələlər:***
1. Cəmiyyətin 2018-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinə dair hesabat.
2. Cəmiyyətin illik dividend paylarının bölünməsi haqqında.
3. Digər məsələlər.

Yığıncağın gündəliyinə dair sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq olunmuş etibarnamə və şəxsiyyəti təsdiqləyən sənədlə ) iştirakı vacibdir.

Telefon- 055-491-78-87.

Ünvan-Bakı , Suraxanı rayonu, Əmircan qəsəbəsi, M.Mustafayev küçəsi 7.

***İdarə heyəti***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

***boya sahəsinə tələb olunan materialların satın alınması məqsədilə***

### *AÇIQ MÜSABİQƏ ELAN EDİR*

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 2019-cu il mayın 23-ü saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan- Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.

Əlaqə telefonu- (012) 404-37-00, daxili-1132.

## BİLDİRİŞ

2002-ci il fevralın 7-də 60 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış "Yehovanın Şahidləri" dini icması təsisçilərinin 15 may 2019-cu il tarixli ümumi yığıncağının 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

## "Azərbaycan Məişət Malları" ASC səhmdarlarının nəzərinə!

**"Azərbaycan Məişət Malları" ASC səhmdarlarının 2018-ci ilin yekunlarına görə iclası 28 iyun 2019-cu il saat 10.00-da müəssisənin iclas zalında keçiriləcəkdir.**

***Gündəlikdəki məsələlər:***
1. "Azərbaycan Məişət Malları" ASC-nin 2018-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı və gələcək perspektivlər.
2.Təşkilatı məsələlər.
3.Digər məsələlər.

***İdarə heyəti***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

***tökmə sahəsi üçün müxtəlif malların satın alınması məqsədilə***

### *AÇIQ MÜSABİQƏ ELAN EDİR*

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 21 may 2019-cu il saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan-Bakı, Heydər Əliyev prospekti 152,"Çinar plaza", 24-cü mərtəbə.

Əlaqə telefonu- (012) 404-37-00, daxili-1132.

## "Dəvəli" ASC səhmdarlarının nəzərinə!

**30 iyun 2019-cu il saat 11.00-da cəmiyyətin növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.**

***Gündəlikdəki məsələlər:***
1.2018-ci ilin yekunları üzrə cəmiyyətin bir illik fəaliyyətinə qiymət verilməsi.
2.Cəmiyyətin müşahidə şurasının ləğv edilməsi.
3.Cəmiyyətin idarə heyətinin və üzvlərinin yenidən seçilməsi.
4.Cəmiyyətin nizamnaməsinə əlavə və dəyişikliklər edilməsi ilə əlaqədar və dəyişikliklərin dövlət qeydiyyatına alınması ilə bağlı səlahiyyətli şəxsin müəyyənləşdirilməsi.
5."Dəvəli" ASC-nin 2018-ci maliyyə ili üzrə illik hesabatlarının, mühasibat balansının , mənfəət və zərər hesabatlarının təsdiq edilməsi, mənfəətin bölüşdürülməsi.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə iştirakı vacibdir.

***İdarə heyəti***

## "Bakı Elektroştamp" ASC səhmdarlarının nəzərinə!

**28 iyun 2019-cu il saat 14.00-da səhmdar cəmiyyətin Bakı şəhəri, Nərimanov rayonu, Araz küçəsi 7 nömrəli ünvanda yerləşən inzibati binasında "Bakı Elektroştamp" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.**

***Ümumi yığıncağın gündəliyi:***
1. "Bakı Elektroştamp" Açıq Səhmdar Cəmiyyətinin 2018-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiqi.

Səhmdarlar ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 10.00-dan 17.00-dək, səhmdar cəmiyyətin Bakı şəhəri, Nərimanov rayonu, Araz küçəsi 7 nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətin rəhbərliyinə müraciət etməklə tanış ola bilərlər.

***Səhmdar cəmiyyətin direktorlar şurası***

## Şamaxı Rayon İcra Hakimiyyətinin Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi *2019-cu ildə küçələrin cari təmiri və şəhər təsərrüfatına lazımi elektrik avadanlığının, mal-materialların və inventarların satın alınması məqsədilə*

### AÇIQ TENDER ELAN EDİR

Tender 2 (iki) lot üzrə keçirilir.

Lot-1. Şəhər küçələrinin cari təmirinin satın alınması.

Lot-2.Şəhər təsərrüfatına lazım olan elektrik avadanlığının, mal-material və inventarların satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Müqavilə 2019-cu il dekabrın 31-dək yerinə yetirilməlidir.

Tenderdə iştirak etmək istəyənlər hər lot üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Şamaxı şəhəri,H.Əliyev küçəsi 27 nömrəli ünvanda Şamaxı Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlikdən (əlaqələndirici şəxs-Zaur Mikayılovdan, telefon-02026-5-33-46) ala bilərlər.

İştirak haqqı hər lot üçün 200 manatdır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Təşkilat- Şamaxı Rayon Yerli Xəzinədarlıq Orqanı
H\h- AZ42 CTRE 00000000000002512732
VÖEN- 8400081801 DXA
Kod- 210005
VÖEN- 1415550171
M\ h- AZ41 NABZ 01360100000003003944
S.W.İ.F.T BİK CTRCAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri 24 iyun 2019-cu il saat 17.00-dək təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətinə qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanı tərəfindən arayış;
- iddiaçının son bir il ərzində maliyyə vəsaiti barədə bank tərəfindən verilmiş arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- analoji işlərdə təcrübəsi, iddiaçının potensial texniki və kadr imkanları haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri - əlavə iş cədvəli, tender təklifi və bank zəmanətini möhürlənmiş ikiqat zərfdə 3 iyul 2019-cu il saat 17.00-a qədər təqdim etməlidirlər.

Yuxarıda göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 4 iyul 2019-cu il saat 10.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

### *boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

| | | |
|---|---|---|
| 1. | İngilis dilinin leksikologiyası və üslubiyyatı-2 | dosent -0,5 ştat, baş müəllim -1 ştat |
| 2. | Beynəlxalq münasibətlər və idarəetmə fakültəsi nəzdində xarici dillər | dosent -0,5 ştat, baş müəllim -2 ştat |
| 3. | Tərcümə fakültəsi nəzdində xarici dillər | baş müəllim -1 ştat |
| 4. | Filologiya və jurnalistika fakültəsi nəzdində xarici dillər | baş müəllim -1 ştat |
| 5. | Təhsil fakültəsi nəzdində xarici dillər | baş müəllim -0,5 ştat |
| 6. | Təhsil fakültəsi nəzdində xarici dillərin tədrisi metodikası | baş müəllim -1 ştat |
| 7. | Filologiya və jurnalistika fakültəsi nəzdində xarici dillərin tədrisi metodikası | baş müəllim -1 ştat |
| 8. | İngilis dilinin fonetikası | dosent -1 ştat, baş müəllim -2,5 ştat müəllim -2 ştat |
| 9. | İngilis dilinin qrammatikası | baş müəllim -1 ştat |
| 10. | Linqvokulturologiya | baş müəllim -1 ştat |
| 11. | Azərbaycan dilçiliyi | dosent -3 ştat |
| 12. | Ümumi dilçilik | baş müəllim -2 ştat |
| 13. | Psixologiya | baş müəllim -1 ştat |
| 14. | Beynəlxalq münasibətlər | dosent -1 ştat |

Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini Azərbaycan Respublikası təhsil nazirinin 7 avqust 1996-cı il tarixli, 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" sənədin tələblərinə uyğun bu elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərə bilərlər.

Bakı şəhəri, AZ1014, R.Behbudov küçəsi 134.

Telefon: 441-22-78 (daxili-230) ,441-22-79 (daxili -230).

Müsabiqədə yüksək peşə-ixtisas hazırlığına, elmi ad və dərəcələrə, lazımi elmi-pedaqoji, idarəetmə təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin müvafiq qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları da iştirak edə bilərlər.

# Xarici xəbərlər

## Nepal

### Yeni dünya rekordu



Nepal vətəndaşı Kami Rita dünyanın ən hündür nöqtəsini – Comolunqma (Everest) zirvəsini 23-cü dəfə fəth edərək yeni dünya rekorduna imza atıb. Qeyd edək ki, o, 8 min 848 metr hündürlükdə yerləşən zirvəyə ilk dəfə 1994-cü ildə, axırıncı dəfə isə ötən ilin mayında 22-ci dəfə qalxmışdı. K.Rita zirvəyə daha 2 dəfə qalxmaq və bundan sonra dayanmaq fikrində olduğunu bildirib.

*Xəbəri BBC verib.*

## Avstraliya

### Koalalar təhlükədədir



Avstraliya qitəsində cəmi 80 min koala qalıb. Avstraliya Heyvanları Müdafiə Fondunun məlumatına görə, qitədə yaşayan kisəli ayıların sayı sürətlə azalır. Tədqiqatçılar koalaların sayının azalmasına səbəb evkalipt meşələrinin qırılmasını, müxtəlif növ xəstəlikləri və iqlim dəyişmələrini göstərirlər. Qeyd edilir ki, zamanında tədbir görülməsə, əsrin sonunadək bu növ nəsli kəsilmək təhlükəsilə üzləşəcək.

*Məlumatı "Nature" yayıb.*

## Belçika

### Ən yaxşı şərab



Dünyanın ən yaxşı şərabı Belçikanın Eno vilayətində istehsal olunur. Bildirilir ki, Brüsseldə keçirilən müsabiqədə "Chant d'Eole" şərabı bu ada layiq görülüb. Məlumata görə, "Chant d'Eole" şərab istehsalçısının üzümlükləri 15 hektar ərazidə yerləşir və müəssisə 2011-ci ildə yaradılıb.

*Xəbəri "Euronews" verib.*

## Çin

### Mübahisə həll olundu




Çinin "Huawei" və Cənubi Koreyanın "Samsung" şirkətləri arasında patent hüququna dair uzun müddət davam edən mübahisə həll olunub. Bildirilir ki, Quandun əyalət məhkəməsi tərəflərə məxsus patentdən birgə istifadə üçün razılığa gəlib. Məlumata görə, yaxın günlərdə şirkətlər patent hüququnun pozulması ilə bağlı ittihamların ləğv edilməsi üçün işə başlamağı planlaşdırırlar.

*Məlumatı "Beijing Business Today" yayıb.*

## İspaniya

### De Liqt "Barselona"ya keçir



La Liqanın lideri "Barselona" "Ayaks"ın kapitanı Matteis de Liqti transfer edir. Kataloniya klubu 19 yaşlı müdafiəçinin transferi ilə bağlı Hollandiya təmsilçisi ilə razılıq əldə edib. Transferin yaxın günlərdə ictimaiyyətə açıqlanacağı gözlənilir.

Qeyd edək ki, "Barselona" daha öncə "Ayaks"dan Frenki de Yonqu 75 milyon avroya transfer edib.

*Xəbəri "Eurosport" verib.*

*Hazırladı:*
*Elçin ABBASOV, "Xalq qəzeti"*



# Suriya konsensusa ÇOX YAXINDIR

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bəyan edib ki, Suriyada Konstitusiya komitəsinin yaradılması məsələsində nəzərəçarpan konsensusa nail olunub. Xəbəri "Anadolu" agentliyi yayıb.**

Qeyd edək ki, Türkiyənin xarici siyasət idarəsinin rəhbəri İstanbulda Suriya müxalifətinin lideri Naser Hariri ilə görüşərək onunla danışıqlar aparıb. Türkiyəli diplomat görüşün nəticəsi barədə öz "Twitter" səhifəsində bildirib: "Biz Suriyada Konstitusiya komitəsinin formalaşdırılması məsələsində mühüm razılığın əldə olunmasına çox yaxınıq".

Nazir həmçinin qeyd edib ki, Bəşər Əsəd rejiminin Suriyanın şimalında dörd deeskalasiya zonasından biri olan İdlib bölgəsinə hücumları Soçi memorandumunun tələblərinin kobud surətdə pozulması deməkdir ki, bu, Astana danışıqlarının ruhu ilə tam ziddiyyət təşkil edir.

Xatırladaq ki, Suriya ordusunun hissələri İdlibdə deeskalasiya zonasının yaradılması barədə 2017-ci il sentyabrın 17-də Soçidə əldə olunmuş razılaşmaya məhəl qoymadan, ərazidə kəskin hücumlar təşkil edirlər.

Təhlilçilər bildirirlər ki, bu il 25-26 aprel tarixlərində Qazaxıstanın Nur-Sultan şəhərində keçirilən danışıqlar ərəfəsində başlanan hücumlar ara vermədən davam etdirilir. Yerli müşahidəçilərin sözlərinə görə, son iki həftə ərzində Suriya ordusunun hücumları xüsusilə intensiv xarakter alıb.

Yeri gəlmişkən, Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan bugünlərdə İdlibdə yaranmış ağır vəziyyəti telefon vasitəsi ilə müzakirə ediblər. Hər iki lider bölgədə vəziyyətin daha da gərginləşdirilməsinin yolverilməz olduğunu bildiriblər.

*M.HACIXANLI,*
*"Xalq qəzeti"*



# Yüksək vəzifəli şəxslərin məlumatları internetə sızdı

**RBK-nın yaydığı məlumata görə, 360 min Rusiya vətəndaşının, o cümlədən "Rosnano"nun rəhbəri Anatoli Çubaysın, "Skolkovo" fondunun həmsədri Arkadi Dvorkoviçin və teleaparıcı Vladimir Solovyovun şəxsi məlumatları internetə sızıb.**

Məlumata görə, yüksək vəzifəli şəxslərin məlumatlarını Bazar İştirakçıları Assosiasiyasının sədri İvan Beqtin aşkarlayıb. O, 8 dövlət sisteminin, o cümlədən Maliyyə Nazirliyinin subsidiyalar üzrə federal büdcə reyestrinin, Ədliyyə Nazirliyinin qeyri-kommersiya təşkilatlarının hesabatları üzrə reyestrinin, "Rostrud" portalında vətəndaşların müraciətlərinin qeydiyyatını və digər dövlət sistemlərinin saytlarının məlumatlarını təhlil edib.

İ.Beqtin onu da qeyd edib ki, 360 min rəqəmi təxmini qiymətləndirmədir. Belə ki, eyni qeyddə bir neçə nəfər haqqında məlumatlar olması bu sayın artmasını şərtləndirə bilər.

*Rövşən ATAKİŞİYEV,*
*"Xalq qəzeti"*

# Hindistan ABŞ-dan "Patriot" raketdən müdafiə sistemləri alır

**Hindistan Rusiyadan alacağı "S-400" zenit-raket kompleksi əvəzinə, ABŞ-ın "Patriot" raketdən müdafiə sistemlərini almaq üçün müzakirələrə başlayıb. "Euronews" agentliyinin yaydığı məlumata görə, buna ABŞ-ın rəsmi Dehlini sanksiyalarla təhdid etməsi səbəb olub.**




Bildirilir ki, Hindistan ötən il Rusiya ilə ABŞ-ın Yeni Dehliyə yönəlik sanksiya təhdidlərinə qarşı imzaladığı "S-400" müqaviləsindən imtina edib. 5,4 milyard dollar dəyərində olan sazişə əsasən, Hindistana 5 ədəd "S-400" zenit-raket kompleksinin göndərilməsi nəzərdə tutulurdu.

Qeyd edək ki, ABŞ Hindistanı Rusiya istehsalı olan raket əleyhinə müdafiə sistemlərini alacağı təqdirdə "Amerikanın əleyhdarlarına qarşı sanksiyalar vasitəsilə müqavimət" (Countering America's Adversaries Through Sanctions Act - Caatsa) ilə təhdid edirdi.

Təhdidlər fonunda Hindistan geri addım ataraq, "S-400"dən imtina edib. Hətta Hindistan rəsmiləri "Patriot" və THAAD raketdən müdafiə sistemlərinin alışı ilə bağlı ABŞ-la ciddi razılıq əldə olunduğunu açıqlayıblar.

*Mahmud QƏRİBOV,*
*"Xalq qəzeti"*



❒ *Ermənistan aqressiv ölkələr arasında reytinqdə birinci yerdə qərarlaşıb.*

# "Gallup International": ERMƏNİSTAN ƏN AQRESSİV ÖLKƏDİR

Bu barədə "Gallup International" agentliyinin "Global Emotions" reytinqində deyilir. Qeyd olunur ki, dünyanın 140-dan çox ölkəsində keçirilmiş sorğuda gülüş, narahatlıq, aqressivlik, heyranlıq, təəccüb və digər emosiyalar barədə suallar verilib.

Sorğuya əsasən, Ermənistan əhalisinin 55 faizi daha çox əsəbiləşdiyini deyib.

Bu reytinqdə İraq, Fələstin və Mərakeş də ön yerlərdədir.

*"Xalq qəzeti"*

# Yəmən qiyamçıları Səudiyyə Ərəbistanının neft kəmərlərinə hücum ediblər

**Yəməndə hakimiyyəti ələ keçirmiş qiyamçı husilər Səudiyyə Ərəbistanının neft kəmərlərinə pilotsuz təyyarə ilə partlayıcı maddə atıblar. Nəticədə, iki nasos stansiyası sıradan çıxıb. Boru kəməri ilə neft ixracı müvəqqəti olaraq dayandırılıb. Yəmən KİV-ləri bildiriblər ki, bütün bunlara baxmayaraq Səudiyyə Ərəbistanı neft ixracını davam etdirə bilib.**

Ekspertlər bildiriblər ki, Yəməndə iğtişaşlar başlayandan sonra bu, Səudiyyə Ərəbistanına qarşı ən böyük hərbi əməliyyat olub.

Dünya neft bazarında bu hadisə böyük həyəcanla qarşılanıb. İki gün əvvəl isə Birləşmiş Ərəb Əmirliklərində qiyamçılar 4 neft tankerini sıradan çıxarıblar ki, bunlardan da ikisi Səudiyyə Ərəbistanına məxsus olub.

Başda Səudiyyə Ərəbistanı olmaqla ərəb koalisiya qüvvələri Yəməndə əvvəlki hakimiyyəti geri qaytarmaq istəyirlər. Lakin hələ ki, onlar buna nail ola bilmirlər.

*Qəzənfər QASIMOV, "Xalq qəzeti"*




# Hava proqnozu

➲ **Mayın 16-da**

➲ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacaq. Yağmursuz keçəcək. Səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-qərb küləyi əsəcək, günün ikinci yarısında şimal küləyi ilə əvəz olunacaq. Gecə 15-18, gündüz 25-29, Bakıda gecə 15-17, gündüz 27-29 dərəcə isti olacaq. Atmosfer təzyiqi norma daxilində 761 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 40-50 faiz olacaq.

➲ **Naxçıvan Muxtar Respublikasında** yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Gecə 9-14, gündüz 28-33 dərəcə isti olacaq.

➲ **Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək.Lakin gündüz bəzi yerlərdə lokal qısamüddətli yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 8-13, gündüz 17-22 dərəcə isti olacaq.

➲ **Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında** əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 13-18, gündüz 25-30 dərəcə isti olacaq.

➲ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 11-16, gündüz 20-25 , dağlarda gecə 5-10, gündüz 13-18 dərəcə isti olacaq.

➲ **Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 14-18, gündüz 27-32 dərəcə isti olacaq.

➲ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Gecə 15-18, gündüz 23-28 , dağlarda gecə 7-12, gündüz 18-23 dərəcə isti olacaq.


# "ZƏYƏM TEXNOLOGİYALAR PARKI" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2019-cu il saat 11.00-da Şəmkir rayonu, Zəyəm ŞTQ, S. Vurğun küçəsi 24 nömrəli (AZ5700) ünvanda "Zəyəm Texnologiyalar Parkı" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2018-ci maliyyə ili üzrə "Zəyəm Texnologiyalar Parkı" ASC-nin icra orqanının hesabatı.
2. 2018-ci maliyyə ili üzrə "Zəyəm Texnologiyalar Parkı" ASC-nin mühasibat balansının, mənfəət və zərər hesablarının təsdiq edilməsi, mənfəətin və zərərin bölüşdürülməsi.
3. Digər cari məsələlər.

# Qusar Suvarma Sistemləri İdarəsi

**2019-cu ildə "Qusarçay"ın sol sahilində Qusar şəhərini sel sularından mühafizə edən daş-beton bəndin əsaslı təmiri üçün layihə-smeta sənədlərinin hazırlanması işlərinin satın alınması məqsədilə kotirovka sorğusu elan edir**

Kotirovka təklifləri 31 may 2019-cu il saat 17.00-dək qəbul olunur.

Təklif zərfləri 3 iyun 2019-cu il saat 11.00-da açılacaqdır.

Əlaqə telefonu -02338 -5-54-08.

Ünvan - Qusar şəhəri, Ç.Qurbanov küçəsi 21 a.

✓ *Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Abbasov Məhərrəm Elnur oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

✓ *Qocayeva Nairə Tanırverdi qızının adına verilmiş çoxmənzilli yaşayış binasının tikintisi haqqında 068 nömrəli fərdi müqaviləyə əsasən verilmiş maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.Bakı, Nizami rayonu, Ə.Vəliyev küçəsi 2433-cü məhəllə, ev 1, mənzil 72.*


# ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov və Nəsimi Rayon İcra Hakimiyyəti Başçısı aparatının kollektivi Nəsimi Rayon Mənzil - Kommunal Təsərrüfatı Birliyinin rəisi Elman Yahyayevə qardaşı

**TEYYUB YAHYAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Heydər Əliyev adına Neft Emalı Zavodunun direktoru Elman İsmayılov Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova əmisi

**ASLAN BAĞIROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
HƏSƏN HƏSƏNOV

TELEFONLAR:
Məsul katib: 493-61-02
Şöbələr: 493-59-03 (8 xətli), 493-69-47, 493-34-13, 493-34-23, 493-59-47, 493-45-18, 493-33-01, 598-84-13.
Reklam və elanlar: 493-82-21, Faks: (99 412) 493-02-80, 598-28-64;
E-mail: info@xalqqazeti.com, xalqqazeti@gmail.com



"Xalq qəzeti"nin kompyuter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 7919
SİFARİŞ 1598
QİYMƏTİ 40 qəpik

Çapa imzalanmışdır 00:00